

**Avropa mediası: “İşğal dönəmində Qarabağdakı şəhər və kəndlər viran qoyulub”**

4

# İLHAM ƏLİYEV:

## “Biz bu münaqişəni özümüz həll etdik!”

**Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib**



2

Səs

№ 063 (6504) 13 aprel 2022-ci il. Qiymәti 60 qәpik

# Laçın üzərindən Xankəndi istiqamətində hərəkətə keçilir!



6

Yeni yol faktoru separatçı rejimin birdəfəlik məhvi prosesini sürətləndirir, Ermənistanı isə küncə sıxışdırır

Məlum olduğu kimi, 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanata əsasən, Azərbaycan yeni Laçın dəhlizinin tikintisini yekunlaşdırır və orada gömrük buraxılış məntəqəsi yerləşdirir. Məlumatlara görə, yolun tikintisi ilə paralel şəkildə Ermənistan -Azərbaycan sərhədindəki Zəngəzurun Xnzirak kəndi qarşısında, Laçının cənubundan keçən yolda gömrük-buraxılış məntəqəsi də tikilir. Demək olar ki, Tex və Xnzirak məntəqələrindəki tikinti başa çatıb. Üstəlik, bir ay əvvəl Azərbaycan tərəfi Xnzirak kəndi qarşısında, yeni yolun...



4

## “Bizim həyət”

**layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib**

## Rusiya-Ukrayna müharibəsinin Azərbaycan iqtisadiyyatına təsiri necə olacaq?



**İQTİSADÇI AÇIQLADI**

6



## Boşanma, yoxsa ailə faciəsi?

11

## İranın Azərbaycandakı səfiri Səs Media Qrupunda olub



6



## Arzusu ürəyində qalan “ERMƏNİ AŞİQİ”

10

Fransa prezidentliyinə namizəd Valeri Pekressin arzuları ürəyində qaldı və istəyinə çata bilmədi. Onun bir qədər...



## “Artan qaz qiymətləri arxasınca neftin qiymətini də aparır”

12

“Dünya bazarında neft də, qaz da artıq bahalaşıb. Faktiki olaraq təqribən 7 aydır ki, bahalaşma yüksək qiymətlər dövrünü...

# İLHAM ƏLİYEV:
## “Biz bu münaqişəni özümüz həll etdik!”

*Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib*



**"Biz Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq"**

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirədə çıxış edərək diqqətə çatdırıb ki, bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib: ”Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik. Bizim iqtisadi göstəricilərimiz də çox müsbətdir. Birinci rübdə ümumi daxili məhsul 6,8 faiz artıb. Qeyri-neft sektorunda isə bu, daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb.”**

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, ikinci Qarabağ müharibəsindəki Qələbəmiz nəticəsində Azərbaycana çox böyük maraq var. İş görmək, biznes əlaqələri qurmaq müraciətləri kifayət qədər çoxdur. Bu gün dünya miqyasında Azərbaycan nadir ölkələrdəndir ki, bu qədər marağı özünə cəlb edə bilib:

”Xarici ticarət dövriyyəmiz artıb və xarici dövlət borcumuz azalıb. Əgər keçən ilin aprel ayı ilə müqayisə etsək, görərik ki, keçən ilin aprelində xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdi, hazırda cəmi 12,5 faizini təşkil edir. Yəni, biz bir il ərzində xarici borcu təqribən 600 milyon dollardan çox bir səviyyədə aşağı sala bilmişik.

Xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo - cəmi üç ayda 5 milyard dollardan çoxdur. Yəni, bu, çox böyük rəqəmdir. Mütəxəssislər onu da bilirlər ki, dünyanın əksər ölkələrində saldo mənfidir. Ölkələr daha çox idxal edir, nəinki ixrac edir. Azərbaycanda isə təkcə üç ayda 5,1 milyard dollar gəlir - bizim ixracımız idxalı üstələyir.”

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter alıb. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir: ”Eyni zamanda, Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir. Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında üçtərəfli görüşlər keçirilmişdir. Görüşlər haqqında məlumat verilmişdir, bu məsələ ilə əlaqədar çox da danışmaq istəmirəm. Ancaq, əlbəttə ki, həm ekspertlər, həm Azərbaycan ictimaiyyəti gördülər ki, yekun kommunikedə ”Dağlıq Qarabağ” adı yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz etmişdir və ”münaqişə” sözü də yoxdur. Bu da təbiidir, çünki münaqişə yoxdur. Münaqişə həll olunub. İndi isə Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə - 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilmişdir. Bildiyiniz kimi, Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da yəni, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni, əgər bu 5 prinsipi qəbul edirsə, - bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir. Razılaşdırıldı ki, həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupları yaradılsın. Bildiyiniz kimi, bu günlərdə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında hesab edirəm ki, yaxın tarixdə, bəlkə də son 30 il ərzində birinci dəfə telefon söhbəti də olmuşdur. Biz bunu da müsbət qiymətləndiririk. Çünki iki ölkə arasındakı münasibətləri iki ölkə həll etməlidir. Buna kömək göstərmək istəyənlər kömək göstərməlidirlər. Mən bunu belə görürəm, bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, sərhədin delimitasiyası ilə bağlı aprelin sonuna qədər formalaşdırılacaq işçi qruplar, eyni zamanda, sülh müqaviləsinin hazırlanmasına dair işçi qruplar tezliklə öz işinə başlamalıdır. Bu prosesə biz çox böyük ümidlərlə baxırıq və vaxt itirmək lazım deyil. Hər halda, biz bunun tərəfdarıyıq ki, vaxt itirmədən məsələnin həllinə başlayaq.

Beləliklə, bir daha demək istəyirəm, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr, bax, bu reallıqlara gətirib çıxarıb. Onu da bildirməliyəm ki, biz beynəlxalq təşkilatlarla yanaşı, qonşu ölkələrlə də sıx əlaqədə idik. Bütün qonşu ölkələr yeni, postmünaqişə reallıqlarını qəbul etmişlər və bu da çox müsbət hal kimi qiymətləndirilməlidir. Eyni zamanda, 3+3 əməkdaşlıq formatının işə düşməsi də bizi sevindirir. Birinci belə görüş keçirilmişdir. Birinci görüşün gündəliyi yox idi. Bu, sadəcə olaraq, bu formatı yaratmaq üçün bir görüş idi. İkinci görüş üçün gündəliklə bağlı bizim planlarımız var, hansı məsələlər orada müzakirə olunmalıdır. Hesab edirəm ki, yaxın gələcəkdə ikinci görüş də keçirilməlidir. Yəni, vaxt itirmək lazım deyil. Bizə bu formatlar, sadəcə olaraq, görüntü naminə lazım deyildir. Bu formatlar əgər konkret nəticə verməsə, onda onun əhəmiyyəti də itəcəkdir.

Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var, biz bilirik nə istəyirik və öz məqsədlərimizə bundan sonra da çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik. Bax, postmünaqişə dövrü ilə bağlı əsas məsələlər bundan ibarətdir və bu işlərin böyük hissəsi 2021-ci ildə, bir hissəsi isə bu ilin üç ayında görülüb. Bu, bizə imkan verir ki, əgər bütün bu gündəlik həyatda öz əksini taparsa, bölgədə, doğrudan da Cənubi Qafqazda sülh olacaq, əmin-amanlıq olacaq, müharibə riskləri böyük dərəcədə azalacaq və beləliklə, biz rahat yaşaya bilərik. Azərbaycan xalqına xas olan yüksək xüsusiyyətləri nəzərə alaraq qurub yarada bilərik. Bunu edirik və bu haqda da bu gün danışacağıq.

Eyni zamanda, əlbəttə, biz heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Eyni zamanda, onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir. Biz real həyatda yaşayırıq və 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi həmişə bizim yaddaşımızda olmalıdır. Məsuliyyətli insanlar kimi həmişə biz hər şeyə hazır olmalıyıq.”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev vurğulayıb ki, postmünaqişə dövrünün nəticələri, birinci ilin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər: ”Biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar. Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır.

İndi Qarabağda ermənilərin yaşadıqları yerdə qaz xətti nasaz vəziyyətə düşmüşdür və bir müddət qaz yox idi. Dünyaya hay-haray qaldırmışdılar ki, Azərbaycan burada humanitar fəlakət törədir. Naxçıvan qazını onlar 15 il kəsib belə vəziyyətdə saxlamışdılar. Naxçıvanda isə qış daha sərtdir. Haradasa şaxta mənfi 30 dərəcəyə çatır. Yaxşı, naxçıvanlılar 1990-cı ildən 2005-ci ilə qədər qazsız yaşamışlar. Kim məhrum etmişdi onları? Ermənilər və Ermənistan rəhbərliyi, Ermənistan dövləti.

Bir adam, bir təşkilat, bir ölkə səsini qaldırmışdı? Yox! Biganə idilər. Amma bir həftə Xankəndidə qaz olmayanda adam qalmayıb ki, bizə zəng etməsin - Amerikadan tutmuş Avropaya qədər. Birincisi, Avropanın özündə elə ölkələr var ki, orada qaz yoxdur, ümumiyyətlə yoxdur, qazlaşdırma aparılmayıb. İndi mən ad çəkmək istəmirəm. Elə ölkələr var ki, qazlaşdırmanın səviyyəsi 3-5 faizdir. Orada humanitar fəlakət hökm sürür? Bunlar bir həftə qazsız qalıblar, bu, humanitar fəlakətdir? Bəs, Naxçıvan 15 il qazsız qalanda niyə humanitar fəlakət deyildi. Sualdır bu. Bu suala cavab var? Var! İkili standartlar və ayrı-seçkilik. Biz indi qazı bərpa etmişik və ermənilər bunu qiymətləndirməlidirlər. Biz, sadəcə olaraq, xoş niyyət göstərmişik. İstəməsəydik, bərpa etməzdik. Kim bizə söz deyə bilər? Biz borclu idik onu bərpa etməyə? Yox! Bərpa etdik, ümid edirik, onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar. Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər yaxşı olacaq.”

**"Dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər"**

# Prezident İlham Əliyev diplomatiyasının

# NÖVBƏTİ UĞURU!

***Beynəlxalq güclər zaman-zaman Qarabağ münaqişəsinin həllini Ermənistanın xeyrinə həll etməyə çalışırdılar. Bu, təkzib edilməsi mümkün olmayan bir faktdır və bunun bədəlini beynəlxalq güclər deyil, son nəticədə Ermənistanın özü ödəməli oldu. Ermənilər anlamaq istəmədilər ki, gec-tez bu münaqişə aktiv fazaya keçəcək və böyük faciə ilə nəticələnəcək. Bu, əlbəttə, ilk növbədə, Ermənistandakı siyasət adamlarını düşündürməli idi ki, yaxın qonşunun torpaqlarını işğal etmək və bu əraziləri mənimsəmək planları yaxşı heç nə vəd etmir. Bütün 30 illik işğal dövründə Ermənistan anlamaq istəmədi ki, onun mühüm vəzifələrindən biri özünün başqalarının əlində olan müstəqilliyini geri alıb, işğalçılıq siyasətindən əl çəkmək və qonşularla dinc yanaşı yaşamaqdır.***



Brüssel görüşü Azərbaycan Prezidentinin dövlət və milli maraqlarımızı qətiyyətlə qoruduğunu bir daha nümayiş etdirdi

Bir də işğalçı Ermənistan onu da bilməlidir ki, yalanın zaman baxımından bir ömrü olsa da, həqiqət əbədidir. Bəli, həqiqət əbədidir. Bu gün Azərbaycan dövlətinin diplomatik ”Dəmir yumruq” siyasəti nəticəsində 20 faizdən çox torpaqlarımızı 30 il həsarətdə saxlayan, ”Böyük Ermənistan” xülyasına, ”24 aprel” stereotipinin ağ yalanlarına 44 gün ərzində son qoyuldu, əzə bildi. Bu, Azarbaycanın haqq yolu idi və həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Bu əzm xalq-dövlət birliyinin, inamının qələbəsidir, bu, Ali Baş Komandanın, Azərbaycan Prezidentinin ”Dəmir yumruq” siyasətinin qələbəsi, xalq-iqtidar-ordu birliyinin həqiqətidir. Və bu qələbədə bütün şəhidlərimizin, Xocalı soyqırımı, 31 mart soyqırımı şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: ”Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir, Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız”. Bax, budur, həqiqət! Ancaq son hadisələr göstərir ki, hətta müharibədə rüsvayçı məğlubiyyətindən sonra belə bu ölkə yenə də müstəqil siyasi qərarlar qəbul etmək imkanlarından çox uzaqdır. Bu da ondan irəli gəlir ki, bu xalqın milli dövlətçilik tarixinin kökü olmadığı və məğlub olduğu üçün sülh müqaviləsinin şərtlərini qəbul etməli və razılaşmalıdır. Və bu gün Qarabağa hansısa statusun verilməsi ümumiyyətlə, mümkün deyil. Bunun heç bir siyasi və ya hüquqi əsası yoxdur.

## PREZİDENT İLHAM ƏLİYEVİN ŞƏRTLƏRİ DƏYİŞİLMƏZ VƏ QƏTİDİR!

Öncə onu qeyd edək ki, bu formatda ilk üçtərəfli görüş ötən il dekabrın 14-də keçirilib və nəticə etibarilə Prezident İlham Əliyevlə Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar qurulub, telefon danışıqları olub. Ümumiyyətlə, bu görüşlər və danışıqlar İlham Əliyevin postmünaqişə dövründə Brüssel sülh gündəliyinin tərkib hissəsidir. Görüşdən əvvəl də qeyd edilirdi ki, tərəflər arasında bir çox məsələdə ümumi razılıq əldə oluna bilər. Amma bir məsələ hər kəsə bəlli idi ki, İkinci Qarabağ müharibəsinin qalib ölkəsi kimi Azərbaycan sülh danışıqlarına başlanılması və sazişin bağlanması istiqamətində vacib 5 şərtini artıq Ermənistana çatdırıb. Bu şərtlər: Dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Sözsüz ki, bu, real faktordur ki, Prezident İlham Əliyev qalib komandan kimi yalnız bu şərtlərin yerinə yetiriləcəyi təqdirdə məğlub ölkənin rəhbəri ilə sülh müqaviləsini imzalaya bilər. Daha dəqiq desək, qalib Azərbaycan Prezidentinin təklifinə əməl olunarsa, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilər. Brüssel görüşündə məğlub ölkənin rəhbəri Nikol Paşinyanın Azərbaycanın irəli sürdüyü, regionda sabitlik, təhlükəsizlik və inkişaf üçün vacib olan beş maddəlik təklifi də qəbul etməli idi və qəbul etdi də! Bir sözlə, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır. Bunun da məqsədi, ilk növbədə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, Cənubi Qafqazda sülhün bərqərar olmasıdır. Çünki Avropa İttifaqı Azərbaycan Prezidenti İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Belə olan halda Ermənistanın müxtəlif iddialarla prosesi ləngitmək cəhdləri iflasa məhkumdur.

## AZƏRBAYCANIN MARAQ VƏ MƏNAFELƏRİNİ QƏTİYYƏTLƏ TƏMİN EDƏN QALİB LİDER

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da imzalanmış və Ermənistanın məğlubiyyətinin hüquqi-siyasi təsdiqi olan Bəyanatda göstərilmiş əsas nizamlama istiqamətləri üzrə növbəti addımların razılaşdırılması məqsədilə Prezident İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə ilk görüş Rusiya Prezidenti Vladimir Putinin təklifi ilə 2021-ci il yanvarın 11-də Moskvada, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 2021-ci il noyabrın 26-da Soçidə keçirilən növbəti üçtərəfli görüşü vacib razılaşmaların əldə olunması ilə nəticələndi. Mühüm olan həm də odur ki, bu ilin yanvarında Moskvada keçirilən ilk görüşdə olduğu kimi, Prezident İlham Əliyev Soçidə də müzakirə olunan bütün məsələlərlə bağlı Azərbaycanın maraq və mənafelərini qətiyyətlə təmin etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilən birgə görüşü bir daha respublikamızın öz milli maraq və mənafelərini qətiyyətlə təmin etdiyini göstərdi. Bu görüşün gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər, əldə olunan razılaşmalar İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə siyasi sferada uğurla davam etdirən Azərbaycanın növbəti diplomatik nailiyyəti oldu.

Bundan bir gün sonra isə Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Brüsseldə Prezident İlham Əliyev ilə Ermənistan Respublikasının baş naziri arasında qeyri-formal görüş keçirildi. Daha bir görüş isə videoformatda baş tutdu. Bu il fevralın 4-də Fransa prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüş Vətən müharibəsindəki yeni reallıqlar fonunda bütün proseslərin respublikamızın maraqlarına uyğun cərəyan etdiyini göstərdi.

Bir sözlə, keçirilən bütün görüşlərin gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər göstərir ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə də inamla davam etdirir və aprelin 6-da Brüsseldə keçirilən görüş də bunu bir daha təsdiq etdi. Bu görüş göstərdi ki, Avropa İttifaqı da regionda sabitliyin yaranmasında maraqlıdır. Cənubi Qafqaz yaxın gələcəkdə Şərqlə Qərb arasında mühüm ticarət xəttinin əsas uzalaşma nöqtəsinə çevriləcək. Bu baxımdan, Aİ regionda təhlükəsizliyin, dinc yaşayış mühitinin formalaşmasında maraqlıdır və məsələnin tezliklə həll olunması istiqamətində çalışmağa hazırdır.

Beləliklə, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın bir araya gəldikləri ikinci Brüssel görüşü daha əvvəlki - 14 dekabr 2021-ci ildəki görüşün davamı deyil, həm də ölkələr arasındakı sülh gündəliyinin daha dərindən dəqiqləşdirilməsi baxımından əhəmiyyəti ilə seçildi. Bir sözlə, bütövlükdə Brüssel görüşü bir daha Zəfər diplomatiyasının təntənəsi olmaqla, eyni zamanda, Prezident İlham Əliyevin qətiyyətli, prinsipial mövqeyinin məntiqi nəticəsidir. Görünən həm də odur ki, Avropa İttifaqı qalib Azərbaycanın regionda yaratdığı yeni reallıqları bölüşür.

***RƏFİQƏ KAMALQIZI***





# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

**İDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, həmçinin tədbir zamanı keçirilmiş ağacəkmə aksiyasında iştirak edib.

Yenilənmiş həyət Xətai rayonu, Rahib Məmmədov küçəsi ev 24, 26 və Aşıq Ələsgər küçəsi 2 ünvanlarında 1300 nəfər sakinin yaşadığı üç çoxmərtəbəli yaşayış binasını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşayış şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə





alınıb, bütün yaş qruplarından olan şəxslərin açıq havada istirahəti üçün əlverişli şərait yaradılıb, o cümlədən çoxsaylı söhbətgah və oturacaqlar, tullantı qutuları quraşdırılıb. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol, basketbol, şahmat və uşaq əyləncə meydançaları, müxtəlif idman qurğuları salınıb, velosiped yolu çəkilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, qaz, su və istilik xətləri yenidən qurulub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 500-ə yaxın müxtəlif ağaclar və kollar əkilib, 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Layihə çərçivəsində çoxmənzilli yaşayış binalarının həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

## Avropa mediası:
# "İşğal dönəmində Qarabağdakı şəhər və kəndlər viran qoyulub"


BPN
Geneva Hosts Event On Removing Landmines In Azerbaijan

EUROPE
Swiss conference addresses the international challenges of landmines in Azerbaijan

Britaniya, Almaniya və Avropanın digər ölkələrinin mediasında Azərbaycandakı mina problemləri ilə bağlı İsveçrədə keçirilmiş tədbir geniş işıqlandırılıb. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, "Azərbaycanda minaların təmizlənməsi üzrə Cenevrədə tədbir keçirilib", "Azərbaycanda piyada əleyhinə minaların beynəlxalq problemlərinə həsr olunmuş İsveçrə konfransı" və "Hüquq və İnkişaf İnstitutu Azərbaycandakı minaların məhvi ilə bağlı tədbir keçirir" sərlövhəli məlumatlarda bildirilib ki, Cenevrə Beynəlxalq Hüquq və İnkişaf İnstitutu (IRDG) aprelin 4-də "Azərbaycanda minaların məhvinə aparan yol: beynəlxalq çağırış" mövzusunda konfrans keçirib.

Qeyd edilib ki, Beynəlxalq Mina Xəbərdarlığı Gününə həsr olunmuş tədbir Azərbaycandakı minaların məhv edilməsinin vacibliyi barədə məlumatlılığın artırılması məqsədilə təşkil edilib. IRDG minaların və müharibənin partlayıcı qalıqlarının zərərsizləşdirilməsi, təhlükəli ərazilərin işarələnməsi və əhatəyə alınması səylərinin dəstəklənməsinə ümid etdiyini bildirib.

Məlumatlarda IRDG katibi Ruçard Belliti, Qlobal Su, Ətraf Mühit və Sağlamlıq İnstitutunun (GIWEH) baş direktoru Nidal Səlim və Davamlı İnkişaf Məqsədləri üzrə Gənclər Parlamentinin (YPSDG) icraçı direktoru Noa Karrinin fikirlərinə yer verilib. Azərbaycana səfərləri zamanı işğal dönəmində Qarabağdakı şəhər və kəndlərin viran qoyulduğunun, rəsmi Bakının həmin ərazilərdəki minaların təmizlənməsi, qaçqınların və məcburi köçkünlərin evlərinə qayıda bilmələri üçün tikinti, yenidənqurma və bərpa işləri apardığının şahidi olduqlarını vurğulayan natiqlər beynəlxalq ictimaiyyəti minaların təmizlənməsi məsələsində ölkəmizə güclü dəstək göstərməyə çağırıblar.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi türkiyəli nümayəndə heyəti ilə görüşüb

Aprelin 12-də Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Baş Qərargahının Kəşfiyyat rəisi korpus generalı Rafet Dalkıranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, hər iki ölkənin orduları arasında qarşılıqlı münasibətlərin, eləcə də hərbi kəşfiyyat sahəsində əməkdaşlığın inkişaf etdiyi xüsusi qeyd olunub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında keçirilən birgə hərbi təlimlərin təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğu vurğulanıb.

# Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib

Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2022-ci ilin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclasa başlamazdan əvvəl S.Qafarova bildirib ki, o, bu ilin əvvəlində aprel ayından başlayaraq hər ay Milli Məclisin komitə iclaslarından birinin Şuşa şəhərində keçiriləcəyini komitə sədrlərinin diqqətinə çatdırmışdı. İlk belə tədbir aprelin 8-də baş tutub və Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclası Şuşada təşkil edilib.

Azərbaycanın parlamentarizm tarixində həmişəlik qalacaq bu hadisə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış şanlı Zəfərin yaratdığı yeni reallığın təzahürlərindən biridir.

Milli Məclisin sədri onu da vurğulayıb ki, parlamentin komitə iclaslarının Şuşa şəhərində keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə elan edilmiş "Şuşa İli"nə töhfə vermək niyyəti ilə bağlı olub. "Qarabağ Azərbaycandır!" həqiqətini bir daha təsdiq edir. S.Qafarova qeyd edib ki, Milli Məclisin komitələrinin Şuşa şəhərində keçiriləcək iclaslarının qrafiki artıq tərtib olunub və komitə sədrlərinə təqdim ediləcək. Parlamentin bu təşəbbüsünün Prezident İlham Əliyev tərəfindən dəstəkləndiyi bildirilib.

İclasda cari məsələlərin müzakirəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, deputatlar Sabir Rüstəmxanlı, Sahib Alıyev, Hikmət Məmmədov, İlham Məmmədov, Nigar Arpadarai, Aqiyə Naxçıvanlı, Fəzail Ağamalı, Razi Nurullayev, Fazil Mustafa çıxış ediblər.

Çıxış edənlər 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində Azərbaycan xalqının İlham Əliyevi növbəti dəfə prezident seçməsindən ötən müddətdə ölkədə gedən inkişaf proseslərinə nəzər salıblar, bu müddətdə Azərbaycanın iqtisadi-siyasi həyatında baş verən mühüm nailiyyətləri qeyd ediblər. Deputatlar ümummilli lider Heydər Əliyevin dövlətçilik strategiyasını uğurla inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi dövrünü Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, iqtisadi və hərbi qüdrətinin güclənməsi, beynəlxalq aləmdə nüfuzunun artması dövrü kimi xarakterizə ediblər.

Bildirilib ki, 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən şanlı Zəfər son iki yüz illik dövlətçilik tariximizin ən böyük təntənəsi, milli maraqlara və bəşəri dəyərlərə söykənən dövlət siyasətinin, müdrik rəhbərliyin məntiqi qalibiyyətidir.

Cari məsələlərin müzakirəsində deputatlar, həmçinin gündəmdə olan bir sıra mövzulara dair fikirlərini açıqlayıblar, seçiciləri düşündürən məsələləri diqqətə çatdırıblar.

Sonra parlament gündəlikdəki məsələlərin müzakirəsinə keçib. İclasın gündəliyi barədə məlumat verən Milli Məclisin sədri bildirib ki, müzakirəyə 6 məsələ çıxarılıb və 1-ci və 2-ci məsələlər Milli Məclisin qərar layihələridir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinin 15-ci bəndinə uyğun olaraq Milli Məclis Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir. Dövlətimizin başçısı tərəfindən Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Milli Məclisə müvafiq təqdimatlar göndərilib və parlament müvafiq qərar layihələri hazırlayıb.



Sahibə Qafarova gündəliyin birinci məsələsinin Elman Rüstəmovun Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyündən azad olunması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi olduğunu bildirib.

Məsələ ilə bağlı məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Azərbaycan Prezidentinin imzası ilə daxil olan Elman Sirac oğlu Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyündən azad olunması haqqında təqdimat İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilib, komitə təqdimata müsbət rəy verib. Qərar layihəsi səsə qoyulub və qəbul edilib.

Gündəliyin ikinci məsələsi olan Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi barədə də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib.

O bildirib ki, Azərbaycan Prezidentinin imzası ilə daxil olan Taleh Tahir oğlu Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında daxil olan təqdimat da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilib və komitə təqdimata müsbət rəy verib. Məsələ ilə bağlı Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun da fikirləri dinlənildikdən sonra qərar səsə qoyularaq qəbul edilib.

İclasda iştirak edən Taleh Kazımov Prezident İlham Əliyevə ona göstərdiyi etimada görə minnətdarlığını ifadə edib və parlamentə onun haqqında təqdimatı dəstəklədiyi üçün təşəkkür edib. Milli Məclisin sədri Taleh Kazımovu təbrik edərək ona yeni vəzifəsində uğurlar diləyib.

Sahibə Qafarova gündəliyin üçüncü məsələsini təqdim etmək üçün Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Hikmət Məmmədova söz verib.

"Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verən Hikmət Məmmədov bildirib ki, bu beynəlxalq sənəd üç ölkənin xüsusi təyinatlı qüvvələrinin birgə təliminin keçirilməsinin şərtlərini, təlimdə iştirak edənlərin öhdəliklərini özündə ehtiva edir.

Məsələnin baxıldığı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxışında layihənin əhəmiyyətindən danışıb, sənədin xüsusi təyinatlıların azad etdiyi Şuşa şəhərində keçirilən Milli Məclisin ilk komitə iclasında müzakirə olunmasının da rəmzi məna daşıdığını vurğulayıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadənin sənəd və onun Şuşa şəhərində ilk dəfə olaraq Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclasında qəbulu ilə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin növbəti iki məsələsinin ikinci oxunuşda olan qanun layihələri olduğunu qeyd edən sədr "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (ikinci oxunuş) müzakirəyə çıxarıb. Məsələ ilə bağlı məlumat verən Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev layihədə ən çox maraq doğuran müddəalar, eləcə də oxunuşlarda deputatların səsləndirdikləri fikirlər haqqında ümumi izahat verib.

Tahir Rzayev layihənin qida təhlükəsizliyi sahəsində günün tələbləri ilə uzlaşdığını söyləyib. Qida təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq, sertifikatlaşdırma və izləmənin həyata keçirilməsi, qida məhsullarının təhlükəsizliyinə dövlət nəzarəti məsələsi qanun layihəsində geniş şərh edilib və mövcud tələblərə uyğun əsaslandırılıb.

Müzakirələrdə komitə və komissiya sədrləri Siyavuş Novruzov, Hicran Hüseynova, Eldar Quliyev, deputatlar Fazil Mustafa, Tahir Kərimli, Azər Badamov, Vüqar Bayramov, Əli Məsimli, Etibar Əliyev, İlham Məmmədov, Cavid Osmanov, Rauf Əliyev, Fəzail Ağamalı, Sevil Mikayılova çıxış edərək layihə ilə bağlı fikirlərini və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Gündəliyin növbəti məsələsi olan Cinayət Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib.

O bildirib ki, sənəddə cinayət mühakimə icraatının elektron formada aparılmasını tənzimləyən Cinayət-Prosessual Məcəlləsinin 51-1-ci maddəsinə dəyişiklik edilməsi təklif olunub və oxunuşlarda komitəyə layihədə dəyişiklik edilməsi ilə bağlı heç bir təklif daxil olmayıb.

Bu qanun layihəsi də səsvermədən keçərək ikinci oxunuşda qəbul edilib. Gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov məlumat verib.

Qanun layihəsi ilə bağlı deputat Əminə Ağazadənin fikirləri də dinlənildikdən sonra layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

## Azərbaycan "İtkin düşmüş şəxslər üçün Qlobal Alyans"ın ilk iclasında təmsil olunub

Aprelin 7-də Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və İsveçrə tərəfinin təşəbbüsü ilə yaradılmış "İtkin düşmüş şəxslər üçün Qlobal Alyans"ın ilk iclası keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Alyansa indiyədək qoşulmuş 10 dövlətin (Azərbaycan, Argentina, Estoniya, Küveyt, Meksika, Nigeriya, Norveç, Peru, Koreya Respublikası və İsveçrə) nümayəndələri iştirak ediblər.

Tədbiri BQXK-nin vitse-prezidenti Jil Karbonye açıb, son beş ildə dünyada itkin düşmüş şəxslərin sayının 75 faiz artaraq 173 800-ə çatdığını qeyd edib, probleme qlobal səviyyədə diqqəti cəlb etmək və bu sahədə qlobal öhdəliklərin icrasını təşviq etmək üçün Qlobal Alyansın yaradıldığını bildirib.



Tədbirdə ölkəmiz Xarici İşlər Nazirliyi və Cenevrədəki diplomatik nümayəndəliyimiz tərəfindən təmsil edilib.

Tədbir iştirakçıları Azərbaycanda itkin düşmüş şəxslər, onların taleyinin müəyyənləşdirilməsi üçün milli səviyyədə görülən işlər, Başlıbeldə kütləvi şəkildə qətlə yetirilmiş insanların qalıqlarının torpaqlarımızın işğaldan azad edilməsindən sonra identifikasiya edilməsi, Daşaltı, Edilli, Sırxavənd və Fərrux kəndlərində kütləvi məzarlıqların aşkarlanması, ərazilərin minalarla kəskin çirkləndirilməsinin qalıqların tapılmasına maneə törətməsi, Azərbaycanın bu problemə beynəlxalq səviyyədə diqqəti cəlb etmək üçün göstərdiyi səylər və bu xüsusda BMT Baş Assambleyası tərəfindən qəbul edilən "İtkin düşmüş şəxslər" qətnaməsi barədə məlumatlandırılıb. Qlobal Alyansın itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasının vacibliyinə qlobal səviyyədə diqqətin cəlb edilməsi və bu sahədə əməkdaşlığa ciddi töhfə verəcəyinə ümid ifadə olunub.

AKTUAL + ŞƏRH

# Laçın üzərindən Xankəndi istiqamətində hərəkətə keçilir!

## Yeni yol faktoru separatçı rejimin birdəfəlik məhvi prosesini sürətləndirir, Ermənistanı isə küncə sıxışdırır

**Məlum olduğu kimi, 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanata əsasən, Azərbaycan yeni Laçın dəhlizinin tikintisini yekunlaşdırır və orada gömrük buraxılış məntəqəsi yerləşdirir. Məlumatlara görə, yolun tikintisi ilə paralel şəkildə Ermənistan -Azərbaycan sərhədindəki Zəngəzurun Xnzirak kəndi qarşısında, Laçının cənubundan keçən yolda gömrük-buraxılış məntəqəsi də tikilir. Demək olar ki, Tex və Xnzirak məntəqələrindəki tikinti başa çatıb. Üstəlik, bir ay əvvəl Azərbaycan tərəfi Xnzirak kəndi qarşısında, yeni yolun keçəcəyi istiqamətdə də sərhəd məntəqəsini inşa edib.**



### Azərbaycan ordusu yalnız strateji yüksəklikləri nəzarətə götürməklə deyil, eyni zamanda, Xankəndi istiqamətində mövqe dəqiqləşdirmələri aparmaqdadır

Onu da qeyd edək ki, alternativ yol Zəngəzurun Korindzor kəndindən keçəcək. Ardınca Laçının Qayğı, Şuşa rayonunun Kiçik Qaladərə və Böyük Qaladərə-Şuşa şəhəri üzərindən Xankəndiyə daxil olacaq. Təkcə bu fakt artıq əminliklə qənaətə gəlməyə zəmin yaradır ki, Azərbaycan ordusu yalnız strateji yüksəklikləri nəzarəti götürməklə deyil, eyni zamanda, Xankəndi istiqamətində mövqe dəqiqləşdirmələri aparmaqdadır.

Artıq o da məlumdur ki, üçtərəfli bəyanata əsasən hazırda Laçın dəhlizində dayanan Rusiya sülhməramlı kontingenti yeni yol və ya dəhliz tikintisi başa çatdıqdan sonra oranı tərk edəcəklər və həmin yerdə Azərbaycan Silahlı Qüvvələri dislokasiya olunacaq. Həmçinin, Laçın şəhərinin tam Azərbaycan dövlətinin suverenliyi və nəzarəti altına keçməsini təmin etmiş olacaq. Nəticə etibarilə həm strateji, həm də iqtisadi əhəmiyyət daşıyan Laçın şəhəri dəhliz statusunu itirəcək və Azərbaycan dövlətinin tam nəzarəti altına keçəcək.

### Ermənistan Zəngəzur dəhlizinin açılmaması üçün istifadə etdiyi ”alətini” itirir

Onu da qeyd edək ki, məhz bu proses Azərbaycan dövlətinin üzərinə götürdüyü bütün öhdəliklərə məsuliyyətlə yanaşdığını sübut edir.

Daha bir mühüm amil budur ki, Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizinin həyata keçirilməsi ilə bağlı bu ölkənin hazırkı dövrə qədər bizə qarşı alət kimi işlətdiyi ”siyasətinə” son qoyulacaq. Nəticədə Bakı qarşıya qoyulan bütün məqsədlərinə nail olacaq və bu proses artıq gedir.

***Rövşən RƏSULOV***



## İranın Azərbaycandakı səfiri

# Səs Media Qrupunda olub

İranın Azərbaycandakı fövqaladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ”SƏS” Media Qrupunda olub. SİA xəbər verir ki, səfir Seyid Abbas Musəvi və ”SƏS” Media Qrupun rəhbəri Bəhruz Quliyev keçirilən görüşdə Azərbaycan və İran dövlətləri arasında olan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında medianın rolu mövzusunda müzakirələr aparılıb. Əvvəlcə B.Quliyev media sahəsində mövcud problemlərin aradan qaldırılması və qarşıda duran perspektivlər barədə məlumatlar verərək, onların həlli istiqamətində təkliflər irəli sürüb.



Görüş zamanı səfir bildirib ki, media bütün dünyada əhəmiyyətli rola malikdir: ”Hər iki ölkə arasındakı münasibətlərin yaxşılaşdırılması üçün media sahəsinə böyük önəm verilir. Sizin kimi təcrübəli və bilikli bir şəxsin iştirakı ilə biz bu sahədə əmədaşlığı genişləndirə bilərik. Bu ilki proqramımızda media ilə bağlı bir sıra layihələrimiz nəzərdə tutulub. İki ölkənin mediasına nəzarət edən qurumlar arasında əməkdaşlıq haqqında sənəd hazırlanır. Bu sənədin yaxın zamanlarda imzalanması gözlənilir. Biz bayaq iki ölkənin mədəniyyəti, tarixi və s. digər sahələrdəki yaxınlıqları barədə danışdıq. Bunları nəzərə alaraq qeyd etmək istərdim ki, biz əməkdaşlığımızı çoxşaxəli bir formada genişləndirməliyik. Bizim medialarımız yüksək səviyyədə əlaqələr qurmalıdır ki, düşmənlərimiz bundan sui istifadə etməsinlər. Biz bu il üçün bir neçə mediatur nəzərdə tutmuşuq. Birinci mediatur Xarici İşlər Nazirliynin nəzdində Azərbaycandan İrana baş tutacaq. ”SƏS” Media Qrupundan gözləntilərimiz olduqca yüksəkdir. Düşünürəm ki, bizim əlaqələrimiz hər zaman müsbət yönümdə inkişaf edəcək və hər iki dövlətin mühüm xəbərləri doğru şəkildə ictimaiyyətə çatdırılacaq. Ramazan ayından sonra hər iki dövlətə rəsmi səfərlər nəzərdə tutulur. Bu səfərlər barədə məlumatları ilkin olaraq ”SƏS” Media Qrupuna bildirəciyik”.

Daha sonra ”SƏS” Media Qrupunun rəhbəri Bəhruz Quliyev qeyd edib ki, qarşılıqlı əlaqələr, mətbuatın inkişafı təkcə dövlət tərəfindən deyil, həmçinin ictimai institutlar tərəfindən də həyata keçirilməlidir: ”Ortaq tarixi, mədəniyyəti, qohumluğu olan iki xalqı bir-birinə vurmaq istəyən yalnız düşmən ola bilər. Azərbaycan-İran münasibətlərinin yüksələn xəttlə inkişaf etməsi düşmənə sərf etmir. Fikrimcə, regionda Azərbaycan, İran və Türkiyə dövlətləri birgə hərəkət etməlidir. Bu gün artıq İran və Azərbaycan dövlət rəhbərləri yeni mərhələyə qədəm qoyaraq, yeni layihələrin ərsəyə gəlməsi üçün müəyyən addımlar atırlar. Həmçinin iqtisadi əlaqələrimiz də genişləndirilir, Zəngəzur dəhlizində də birgə əməkdaşlıq nəzərdə tutulur. Biz çalışamlıyıq ki, iki dövlət arasındakı münasibətlər dostluq, qardaşlıq, mehriban qonşuluq müstəvisində inkişaf etdirilisin”.

Sonda İran İslam Respublikasının Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ”SƏS” Media Qrupunun redaksiyası ilə tanış olaraq, jurnalistlərlə xatirə şəkilləri çəkdiriblər.

***Banuçiçək Hüseynli***

# Rusiya-Ukrayna müharibəsinin Azərbaycan iqtisadiyyatına təsiri necə olacaq?

**“Ukrayna ətrafında davam edən bu münaqişənin Azərbaycan üçün bir çox istiqamətlər üzrə mənfi nəticələri olacaq. Azərbaycanın həm Rusiya, həm də Ukrayna ilə kifayət qədər geniş xarici ticarət əlaqələri, qarşılıqlı ticarət dövriyyəsi var. Sözsüz ki, münaqişə bu dövriyyəyə təsirsiz ötüşməyəcək”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib.**



## İQTİSADÇI AÇIQLADI

Onun sözlərinə görə, Rusiyada etnik azərbaycanlıların işlə təmin olunması, ölkəmizə vəsait köçürülməsinin reallaşdırılması məsələsi də olduqca önəmlidir: ”Rusiyada yaşayan 3 milyona yaxın azərbaycanlının sosial vəziyyəti də ölkəmizə öz təsirini göstərəcək. Bunlarla yanaşı ölkəmizin qeyri-neft, qeyri-xammal sektoru nöqteyi-nəzərdən prioritet bazarı hələ uzun müddət Rusiya olacaq. Ona görə də Rusiyadakı vəziyyət Azərbaycan iqtisadiyyatı üçün önəmlidir”.

İqtisadçı sözlərinə davam edərək həmçinin belə qeyd edib ki, iqtisadiyyatının imkanlarını nəzərə alsaq, Rusiyanın çökəcəyi ilə bağlı verilən proqnozların əsassız olduğunu deyə bilərik: ”Hazırki vəziyyətdə Rusiya üçün qonşu dövlətlərlə iqtisadi əlaqələrin qurulması prioritetdir. Azərbaycan da bundan faydalana bilər. Eyni zamanda, Rusiyada istehsal olunan məhsulların Azərbaycan üzərindən başqa bazarlara çıxarılması perspektivini də nəzərə almaq lazımdır. Ən əsas məsələlərdən biri isə enerji daşıyıcıları, neft və qazın qiymətlərinin kəskin artımıdır ki, ölkəmiz bu istiqamətdə iqtisadi dvidentlər əldə etməyə başlayıb”.

***Ləman Əlizadə***

# “Ermənistan hakimiyyəti verdiyi vədləri yerinə yetirmir”

***Atlas Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun SİA-ya verdiyi müsahibəni təqdim edirik.***



*- Avropa İttifaqının təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə üçtərəfli görüş keçirildi. Ümumiyyətlə bu kimi görüşlərdə Avropa İttifaqının aktivliyi nədən ibarətdir? Sizcə, burada hər hansı bir məqsəd varmı?*

- Avropa İttifaqının fəallaşmasının anlaşılan səbəbləri var. Çünki Avropa İttifaqı Cənubi Qafqazla sıx əlaqələr qurmaq istəyir. Azərbaycan, Ermənistan və Gürcüstan Avropa İttifaqının müxtəlif proqramlarında iştirak edirlər. Ən əsası Şərq tərəfdaşlığı proqramıdır. Avropa İttifaqının bölgə ölkələrinə kreditləri var. Azərbaycan Avropaya qaz nəql edir. Həmçinin Ukrayna-Rusiya münaqişəsi fonunda Avropanın Azərbaycana enerji resurslarına marağı daha da artır. Bütün bu səbəblərdən Avropa istəyir ki, bölgədə əmin-amanlıq, əməkdaşlıq yaransın. Bu səbəbdən də artıq ikinci dəfədir ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə görüş keçirildi. Hər iki görüş də faydalı oldu. Avropa İttifaqının bəyanatlarına baxsaq görərik ki, bütün bəndlər Azərbaycanın, eləcə də Ermənistanın xeyrinədir. Bu baxımdan Avropa İttifaqının fəallaşması faydalıdır. Bildiyimiz kimi dünən Azərbaycan və Ermənistan XİN başçılarının birbaşa telefon danışığı baş tutdu. Hesab edirəm ki, bu danışıq müsbət bir addımdır.

*- Brüssel görüşündə əldə edilən razılaşmaların qısa zamanda icrasının mümkünlüyü gündəmdədir. Erməni tərəfi bundan öncə də əldə edilən razılaşmalara riayət etməyib. Bu xəttin davam edəcəyi təqdirdə hansı addımlar atıla bilər?*

- Ermənistan hakimiyyəti verdiyi vədləri yerinə yetirmir. Paşinyan hər dəfəsində sülh sazişinin bağlanmasını, Azərbaycanın təkliflərini qəbul etdiyini bildirir. Çünki Paşinyan iki qüvvədən - yəni radikal müxalifətdən və Rusiyadakı qüvvələrdən qorxur və çəkinir. Paşinyan Avropa İttifaqının istəklərini və bəyanatlarını yerinə yetirmir. Son zamanlar çox təəssüf ki, Qarabağdakı Rusiya hərbiçiləri separatçılarla birlikdə eyni mövqedən çıxış edirlər. Ermənistanın nə dərəcədə Avropa İttifaqının istəklərinin yerinə yetirəcəyini yaxın günlərdə görəcəyik.

*- Bildiyimiz kimi Brüssel görüşündən əvvəl Ermənistanda bir sıra aksiyalar keçirildi. Ümumiyyətlə onlar bununla nəyə nail olmaq istəyirlər?*

- Ermənistanda cəmiyyət yekcins deyil. Cəmiyyətdə susqun aclıq baş verir. Bu cəmiyyət çox qorxaqdır. Onlar müəyyən problemlər yarada bilərlər. Amma Paşinyanı devirə bilməzlər. Çünki səs çoxluğu Paşinyanın tərəfindədir. Paşinyan başa düşməlidir ki, Azərbaycan ilə Türkiyə ilə münasibətlərin normallaşması Ermənistanın xeyrinədir.

*- Artıq Fransada prezident seçkilərinin ilk turu başa çatdı. Bu seçkilərin Cənubi Qafqazdakı proseslərə təsiri necədir?*

- Fransa Avropa İttifaqının əsas iki dövlətindən biridir. Azərbaycan bu dövlətlə yaxşı münasibətlər qurmaqda maraqlıdır. Azərbaycan Fransa ilə əməkdaşlığı davam etdirmək istəyir. Çox təəssüflər olsun ki, Fransada prezident kim olursa-olsun ermənipərəst mövqedən çıxış edir. Əlbəttə ki, bunun əsas səbəbi Fransada olan erməni lobbisidir. İkinci turda Makron da iştirak edəcək. Düşünürəm ki, Makron ikinci turda da üstünlük təşkil edəcək.

*- Fransanın Avropa Birliyinə sədrliyi fonunda seçkidən sonra Cənubi Qafqaz siyasətinin arxa plana keçəcəyi kimi yanaşmalar nə qədər məntiqlidir?*

- ATƏT-in Minsk Qrupu artıq yoxdur. Azərbaycan tərəfi dəfələrlə vurğulayıb ki, İkinci Qarabağ müharibəsindən sonra bizim belə bir mənasız qrupa ehtiyacımız yoxdur. Həmin qrupun içində Fransa da var idi. Qarabağ bizim daxili məsələmizdir və bu məsələdə artıq onların rolu azalıb.

***Arzu Qurbanzadə***

# “Sanksiyalar Rusiyanın sonunu gətirə bilməz”

*İQTİSADÇI AÇIQLADI*



“Bu gün dünya iqtisadiyyatında olduqca maraqlı proseslər baş verir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Aslan Əzimzadə bildirib. İqtisadçı qeyd edib ki, bütün bu hadisələr kontekstində Azərbaycan və Rusiya arasında iqtisadi əlaqələr mühüm rola malikdir: ”2020-ci ildə Azərbaycan və Rusiya arasında xarici ticarət dövriyyəsi 2,6 milyard dollar həcmində olmuşdur. Təbii ki, bu 2019-cu ilə nəzərən azdır. Bu dönəmdə 3 milyard dollar olmuşdur. Təbii ki, Covid-19 pandemiyası səbəbindən gözlənilən göstərici idi. Bu Covid-19 pandemiyasının iqtisadiyyata vurduğu müəyyən mənfiliklər idi. Lakin bu dönəmdə bütün dünyada iqtisadi çöküş keçərli idi. Düşünürəm ki, bu səbəblərə baxanda 2,6 milyard dollar ticarət dövriyyəsi yaxşı nəticədir. Qeyd edim ki, bu gün Rusiyaya bir çox dünya ölkələri tərəfindən sanksiyalar qoyulub. Müəyyən mənada bu sanksiyalar Rusiyada dollara olan tələbatı aşağı salır. Çünki əhalinin dollar almaq kimi bir niyyəti yoxdur. Əhali dollar alsa belə, xərcləyə bilməyəcək. Bu sanksiyalar dolların gələcəkdə dünya valyutası kimi rol oynamasında sonunu gətirib. Belə olduğu təqdirdə, rublun dəyərinin qalxdığını görürük. Azərbaycan və Rusiya arasında imzalanmış Moskva bəyannaməsi ikitərəfli müttəfiqlikdə rolu böyükdür. Bu bəyannamə artıq Azərbaycan və Rusiya arasında iqtisadi əlaqələrin inkişafının yeni mərhələsidir. Düşünürəm ki, növbəti illərdə xarici ticarət dövriyyəsində artım müşahidə edəcəyik. Qeyd edim ki, imzalanmış bəyannaməyə əsasən tərəflər xarici ticarət sövdəşələmələrini milli valyuta ilə aparmağa imkan yaratmalıdır. Bu isə dollardan yarana biləcək böhrana qarşı iki ölkənin xarici ticarətində adaptiv bir mexanizmin formalaşması ilə nəticələnəcəkdir”.



***Qönçə Quliyeva***

*TƏRS BAXIŞ+ ÖZƏL*

# Pərvərdigara, gör bizi hansı AXMAQ məxluqlarla qonşu etmisən!

## Yaxud, bir erməni "təfəkkürü" bundan artıq olmayacaq ki...

Son günlər dost və qardaş Pakistan dövlətində baş verən siyasi gərginliklər müşahidə olunur. Ölkənin daxilində cərəyan edən müəyyən qarmaqarışıq hadisələrin isə tezliklə həll olunacağına və hər şeyin öz məcrasına qayıdacağına ümid etməyimizlə yanaşı, daha bir məqama toxunmağı vacib saydıq.

Məsələ ondadır ki, dünyanın hansı yanında nə baş verirsə, dərhal həmin hadisələri özləri ilə müqayisə edən ermənilər indi də Pakistandakı siyasi böhranın nəticələrini hələ də ”xilas edə biləcəkləri” ”artsaxla” əlaqələndirməyə başlayıblar. Əslində isə bu kimi düşük və ucuz yanaşmaları ilə çıxılmaz vəziyyətdə olduqlarını daha çox büruzə edən ermənilər artıq bir neçə gündür ki, öz KİV-lərində bu haqda yazır, az qala bayram edirlər və bununla necə təlxək, vassal, başqa ölkələrdə baş verən hadisələrdən asılı məxuqlar olduqlarını növbəti dəfə və daha çox nümayiş etdirirlər.


Armenian Report
НАША АНАЛИТИКА
Хан ушел, Эрдогану приготовиться: шанс для Арцаха
Воодушевление ArmenianReport
10 Апреля 2022 - 15:30 1417
Галуст Григорян
Автор ArmenianReport
Ильхам Алиев без поддержки Путина, Эрдогана, Хана вынужден будет пойти на попятную.

Misal üçün, armenianreport adlı saytda İmran Xanın baş nazir vəzifəsindən gedişinin Azərbaycana mənfi, Ermənistana isə müsbət təsir edəcəyini, üstəlik ”artsax” üçün ”xilas” yolunun açılacağını utopik və ucuz düşüncə tərzlərində car çəkən erməni analitiki Pakistanın Qarabağ məsələsində Azərbaycana açıq dəstək göstərdiyini xatırladır və s. Amma bu axmaq analitik hələ də anlamır və dərk etmir ki, Pakistanda kimlərin, hansı siyasi qüvvələrin iqtidarda olmalarına baxmayaraq bu ölkə əzəldən Azərbaycana dəstək ifadə edib, üstəlik - Pakistan hələ də Ermənistanı müstəqil ölkə kim TANIMIR!

Yəni İmran Xan vəzifədən getsə də, Pakistanın Azərbaycana olan münasibəti daim ən yüksək səviyyədə qalır və bundan sonra da qalacaq, inkişaf edəcək.

Beləliklə, İmran Xanın istefasını ”atəşfəşanlıqla” qarşılayan ucuz ”təfəkkürlü” erməni analitikləri bir az da irəliyə gedərək əslində daxillərindəki ”arzularını” reallıq kimi təqdim edir, bu vasitələr ilə özlərinə necə deyərlər, süni təskinliklər verirlər və bu, həqiqətən də çox gülməli görünür. Məsələn, İmran Xanın gedişindən sonra növbənin qardaş Türkiyənin dövlət başçısı Ərdoğana da sirayət edəcəyini həyasızcasına iddia edən erməni məxluqları onu da anlamırlar ki, bir dövlətin daxili siyasətində cərəyan edən hadisələrin digər dövlətə heç bir qarışacağı olmur. Yəni Pakistan Pakistandır, Türkiyə də Türkiyədir və onların daxili siyasətlərinin bir-birlərinə heç bir dəxli-filanı da yoxdur.

Yeri gəlmişkən, ucuz erməni ”analitiklərinin” buna qədər də bənzər yanaşmalarından bəzilərini xatırlada bilərik. Türkiyədə meşə yanğınları baş verərkən, yaxud türk lirəsi müvəqqəti inflyasiyaya uğrayarkən, zəlzələ olarkən yenə də ”artsaxın xilası yaxındadır” tipli klounadalıqlarını edənlər də həmin məxluqlar olublar.

Beləliklə, onların ”ümidləri” həm də ondan ibarət olur ki, sən demə, Pakistandakı olaylar, Türkiyədəki hadisələr, eləcə də Rusiyanın dünyadakı reytinqinin aşağı düşməsi nəticəsində Azərbaycan müttəfiqlərini itirəcək və ermənilər də dərhal ”artsaxı” geri qaytaracaqlar (???)

Təkcə haqqında bəhs etdiyimiz erməni ”analitikinin” sərsəm, axmaq proqnozunun bircə cümləsini dəyərli oxucularımızın ixtiyarına buraxıram. Oxuyun və istədiyiniz qədər gülün. Öncədən qeyd edim ki, dırnaq içindəki sitatdakı dırnaqlar da bizimdir. SİTAT: ”Və beləliklə, İlham Əliyev Putinin, Ərdoğanın, Xanın dəstəyi olmadan ”artsax xalqının hüququnu”, ”ikinci erməni dövlətinin quruluşunu” tanımağa məcbur olacaq. Sonra isə ”artsaxa” qarşı aparılmış müharibələrdə törədilmiş bütün ”cinayətlərə” görə ”kompensasiyalar” ödəniləcək”.

Nə deyək, biz yalnız Allaha müraciət edərək Ona şikayət edə bilərik - Pərvərdigara, gör hansı məxluqlarla qonşu olmuşuq! Gözəgörünməz axı nəyə görə belə bir ucuz, üfunət iyi verən bir erməni ”təfəkkürünü” məhz bizlərə urcah edib?

Belələrinə isə heç Allah ağıl verməsin, onsuz da ağıllanası deyillər, kökləri, toxumları əvvəldən zaydır desək, daha məqbul olardı...

***Rövşən RƏSULOV***

***P.S. Adama deyərlər ki, acından günorta da deyil, axşam yuxudan qalxırsan, dırnaqarası ”ölkən” xəritədən silinmək üzrədir, sən hələ də ”artsaaaxxx, dərdim məniiimmm” deyib, dad edirsən. Amma adama deyərlər, daha belə axmaq və təlxək adamabənzər məxluqlara deyil...***

# Dini ali təhsil və tolerant mühit

## İlham Əliyev: "Dövlət dindarlara daim dəstək, dayaq olur"

Bu gün Zəfər qazanmış Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət kimi böyük imicə, nüfuza sahibdir. Demokratik, hüquqi dövlətimiz milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasına da öz töhfəsini verir. Sözsüz ki, bu qloballaşma şəraitində dünya dövlətləri tərəfindən maraqla qarşılanır. Ölkəmizdəki multikultural dəyərlər, tolerant mühit dünyaya bir mesaj olaraq çatdırılır. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Müasir







dövrümüzdə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyevin siyasi irsini və əsasını qoyduğu ənənələri inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev yürütdüyü siyasət dini konfessiyaların dinc yanaşı yaşamasını, qarşılıqlı əlaqəsini, müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə səy göstərmələrini təşviq edir.

### MÜXTƏLİF ETNOSLARIN VƏ MİLLƏTLƏRİN TARİXƏN DOSTLUQ VƏ QARDAŞLIQ ŞƏRAİTİNDƏ YAŞADIĞI TOLERANT ÖLKƏ

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib.

Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Son 19 ildə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir.

### DİNİ-MƏNƏVİ MÜHİTİN QORUNUB SAXLANILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ SAHƏSİNDƏ YÜKSƏK İXTİSASLI KADRLAR HAZIRLANIR

Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşü, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması, ölkədə həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Azərbaycan Prezidentinin məlum Sərəncamı ilə Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Bu Sərəncam Azərbaycanın xarici dini təhsildən asılılığını azaltmaq, yerli ilahiyyatçı kadr ehtiyacını təmin etmək baxımından əhəmiyyətlidir. Cari ilin aprelin 11-də Cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışı isə ölkəmizdə dini təhsilin inkişafına xüsusi diqqət və qayğının mövcudluğunu, bunun milli təhlükəsizliyin vacib elementi kimi nəzərdən keçirildiyini göstərir. Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışı bir daha dini-mənəvi mühitin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə ayrılan diqqətin təzahürüdür. Ölkəmizdə vətəndaşların dini etiqad, vicdan və təhsil hüquqlarının səmərəli realizəsinin ölkə rəhbərliyinin diqqət mərkəzində olmasının bariz göstəricisidir. İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksək ixtisaslı kadrlar hazırlanır. Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin, ingilis və ərəb dilləri tədris olunur.

Gənclərin müxtəlif radikal dini məzhəblərin təsiri altına düşmələri müasir dünyanın qorxulu tendensiyalarından birinə çevrilib. Təəssüflə vurğulamaq lazımdır ki, Azərbaycan vətəndaşlarının da bu cür mənfi təsirləri altında müxtəlif ölkələrdə, o cümlədən Suriyada qanunsuz hərbi birləşmələrə qoşulması hallarına rast gəlinib. Bütün bunların fonunda bir çox ölkələrdə dövlətin nəzarətində olan, elmi əsasda fəaliyyət göstərən dini ali təhsil müəssisələrinin yaradılması vacibliyi geniş müzakirə olunur. Yüksək səviyyəli dini-mənəvi təhsilin aparılması üçün ixtisaslaşmış kadrların hazırlanması Azərbaycanın dövlətinin də qarşısında duran mühüm vəzifələrdən biri olduğundan buna xüsusi önəm verilib. Əlbəttə ki, gənclərin milli-mənəvi dünyagörüşünün formalaşmasında, onların ailədə və cəmiyyətdə əxlaqlı insan kimi yetişməsində dinin özünəməxsus rolu var. Bu baxımdan, dini dəyərlərin, İslamın düzgün tədrisi və təbliği, dini maarifləndirmə tədbirləri gənclərimizin müxtəlif zərərli vərdişlərdən qorunmasına xidmət edir. Dini ali təhsilin inkişafı Azərbaycanda tolerant və muktikultural dəyərlərin inkişafına ciddi təkan verir, sağlam mənəvi mühit formalaşdıraraq dözümsüzlük, fanatizm, ksenofobiya və ekstremizm kimi neqativ meyillərin qarşısını alır. Dini biliklər və maarifləndirmə gənclərin mənəvi təhlükəsizliyini gücləndirir, onlarda zərərli vərdişlərə qarşı mübarizlik yaradır, məzhəbçiliyi və dini radikallığı aradan qaldırır.

### ”AZƏRBAYCANDA DİN DÖVLƏTDƏN AYRIDIR”

Müasir dövrün tələblərinə uyğun istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, 43 müəllim çalışır. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər. Əlbəttə ki, görülən işlər deməyə əsas verir ki, Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədədir. Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin. Dövlət başçısının çıxışlarının birində vvurğuladığı kimi: ”Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur”.

Müasir dünyada müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Bəzi dünya dövlətlərində terrorizm, islama qarşı hücumlar artıb, islamafobiya güclənib. Avropa dövlətlərində milli mövcudluğu qoruyub saxlamaq cəhdlərinə qarşı aqressivlik, milli, dini və ayrı-seçkilik, mühacir və qaçqınların sıxışdırılması fonunda Azərbaycanda tolerantlıq, dözümlülük, multikulturalizm mühiti diqqətdən kənarda qalmır. Ölkəmizin mədəniyyətlərarası, dinlərarası və sivilizasiyaların təmas mərkəzinə çevrilib. Azərbaycan isə ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. ”İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır” - deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: ”Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk”.

Həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu naliyyətin davamlı olması üçün tədbirlər həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Hansı hallar orucu batil edir?

**Orucu nə pozur və ya oruc necə pozulur? Bu cür suallar Ramazan ayının ən maraqlı mövzularındandır. Duş qəbul etmək, göz, qulaq və burun damcısı istifadə etmək, yeməyi və su içməyi unutmaq orucu pozarmı?**

ARAŞDIRMA

## Ağzı su ilə çalxalamaq orucu batil edir?

İstər dəstəmaz, istər təmizlik, istərsə də sərinləmək üçün oruc tutanın su ilə ağzını yaxalaması orucu pozmayan hallardandır. Lakin su boğaza girərsə, oruc pozulur.

## Duş qəbul etmək orucu pozur?

Ağızdan və burundan su udulmadıqca oruc pozulmur. Oruc tutanda çimməyin heç bir zərəri yoxdur. Lakin oruc tutanda vanna qəbul edərkən suyun qulaqlara, ağıza və buruna getməməsinə maksimum diqqət yetirilməlidir.



Əgər oruc tutanda qüsl alarkən ağıza su daxil olarsa, qəza orucunun qəzası tutmalıdır. Ancaq qulağa gedən suyun mədəyə çatmadığı elmi şəkildə sübut olunduğu üçün orucu pozmadığı müəyyən edilmişdir.

## Saqqız çeynəmək orucu pozur?

Günümüzdə istehsal edilən saqqızların tərkibində ağızda əriyən əlavələr olduğundan, nə qədər diqqətli olsanız da, onları udmaqdan qaçınmaq mümkün deyil. Bu səbəblə bu növ saqqız orucu batil edir. Ancaq əvvəllər heç bir qatqısı olmayan saqqız orucu batil etmirdi.

## Dişləri fırçalamaq və ya müalicə etmək orucu pozur?

Dişləri fırçalamaq orucu pozmaz. Lakin diş məcunu və ya su boğaza girərsə, oruc pozulur və qəzası lazımdır. İmsakdan əvvəl və iftardan sonra dişlərin fırçalanması məqsədəuyğundur.

## Dərman qəbul etməli olanlar oruc tutmalıdır?

Ramazan ayında oruc tutmamağı halal edən üzrlərdən biri də xəstəlikdir. Xəstə və dərman qəbul edən insanların oruc tutmamağı normal qəbul edilir. İmkanlı insanlar



bunun qarşılığında nəzir verir. Orucun əsas ünsürü yemək, içmək və cinsi əlaqədən çəkinməkdir.

## Zəkat vermənin konkret vaxtı var?

Zəkat vermənin konkret vaxtı yoxdur, fərz olduğu andan etibarən verilməlidir. Bunun üçün müəyyən ayı və ya Ramazanı gözləməyə ehtiyac yoxdur.

## Məlhəm, sarğı və ya dərmanlı bantlardan istifadə orucu pozur?

Dərideki məsamələrə görə vurulan yağ, məlhəm və buna bənzər şeylər sorulur və qana qarışır. Həmçinin, bu, yeyib-içmək demək deyil. Bu baxımdan, dəriyə vurulan məlhəm və dərmanlar orucu pozmaz.

## Odekolondan istifadə etmək və ətir vurmaq orucu pozarmı?

Oruc tutanların dezodorant, ətir və ya odekolondan istifadə etmələri caizdir. Odekolon, ətir və krem yemək-içmək kateqoriyasına daxil deyilsə, bu, orucu pozmaz.

## Çaşıb yemək və su içməyi unutmaq orucu pozur?

Unudub yeyib-içmək orucu pozmaz.



SİA məsələ ilə bağlı araşdırma apararaq din xadimlərinin fikirlərini öyrənib.

**Din xadimi Mircəfər Əyyubov:** "Udqunmaq orucu batil etmir. Orucu batil edən yeməkdir. Yeməyin fərqi yoxdur. Çörək də yesə, torpaq da yesə orucu batildir.



Ümumiyyətlə, udlaqdan nə isə getdisə, oruc batil olur. İçməyə gəldikdə isə fərqi yoxdur, halal, ya haram içkilər içsin. İçki orucu batil edir.

Kişi və qadın münasibətləri orucu batil edir. Qüsl etmədən oruc tutmaq olmaz. Çünki bu zaman oruc batil olur. Mayelərlə imalə etmək orucu batil edir.

Udqunmaq, ağız suyunu udmaq orucu batil etmir. Şəriət insanı məngənəyə salmır, sadəcə, normal, insanın edə biləcəyi yasaqlar qoyur.

Gözə, buruna dərman töksəniz, əgər o dərman boğaza getməsə batil olmur, getsə isə batil olur. Birinin başı ağrıyırsa, hər hansı bir xəstəliyi varsa dərman içməsin, dərman içsə batil olacaq. Onun əvəzinə iynə vurdursun.

Diş çəkdirmək əgər boğaza nəsə getməsə olar. Oruc halında hamama getmək çimmək tövsiyə olunmur, çünki bunlar insanı zəiflədir və zəifləyəndə dözümsüz olur. Amma bir nəfər çimsə eybi yoxdur, ağzına su getməmək şərtilə bu olar. Amma başı bütöv suyun altına salmaq, hovuzda çimmək olmaz. Qan vermək cüzi analiz üçün olsa eybi yoxdur. Amma əməlli-başlı qan vermək o insanı zəiflədə bilər. Ona görə də tövsiyə olunmur.

Yatmaq orucu batil etmir. Səfərə çıxmaq orucu batil edir ki, sonra bir gün qəza tutmalı olursan".

**Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Hacı İbrahim Quliyev:** "Orucluq İslam şəriətində ən mühüm ayinlərdən biridir. Buna görə də hər il Ramazan ayı başda olmaqla digər aylarda da bəzi oruclar var. Lakin Ramazan ayının orucu vacib oruc hesab edilir. Çünki Qurani-Kərimdə də, peyğəmbərimizin sünnəsində də, hədislərində də bəhs olunur ki, hər kəs Ramazan ayına yetişsə, gərək bu ayı oruc tutsun. Buna görə də Ramazan ayına aid şəriət kitablarında bəzi qanunlar var.

Yaxşı olar ki, oruc tutanlar həmin qayda-qanunları öyrənə və onlara riayət edənlər. Əks halda özləri də bilmədən orucları batil olar.

Orucu batil edən bir neçə əməl var. Əgər insan bunları qəsdən yerinə yetirərsə, heç şübhəsiz ki, onun orucu batil olacaq.

Yaxşı olar ki, Ramazandan sonra həmin orucları qəza etsin. Əgər oruc tutan şəxs qəsdən bir şey yesə və ya içsə şübhəsiz ki, onun orucu batildir. Udlaqdan mədəyə ötürülən hər bir şey orucu batil edər.

Lakin oruc tutan şəxs bir şeyi səhvən yesə və ya içsə şübhəsiz ki, onun orucu batil olmaz. Səhvən orucunu pozan adam sübh azanını eşidən kimi dərhal ağzındakı yeməyi çıxarmalıdır. Əgər qəsdən udsa, yenə də onun orucu batil olar.



Hətta bu, o qədər incə bir məsələdir ki, İslami mənbələrdə qeyd edilir ki, əgər oruc tutan dişinin arasında qalan hər hansı bir qırıntını, məsələn çörək, ət qırıntısı kimi və s. onu udsa yenə də onun orucu batil olmuş olar. Amma ağız suyunu udmaq, turş şeyləri xəyala gətirib ağız sulandığı halda onu udmaq belə şeylər orucu batil etmir.

Bundan başqa cinsi münasibət də orucu batil edər. Yalan İslamda günahdır. Adi şəraitdə yalan danışmaq orucu batil etməz. Amma Allahın adına, məsələn Quranda, olmayan bir ayəni Quranda varmış kimi demək və yaxud da peyğəmbərimizin buyurmadığı bir hədisi onun adına qəsdən demək orucu pozmuş olar.

Əksər alimlərin gəldikləri qənaət bundan ibarətdir ki, əgər bir adam qatı tozu boğaza çatdırarsa məsələn qəlyan, siqaret kimi və s. həmin şəxslərin orucu batil olur. Başı tamamilə suya salmaq, çay kimi, dəniz, hovuz kimi yerlərə kəllə vurmaq tamamilə bütöv bədəni suyun altına batırmağa deyilir. Amma hamamda çimmək və yaxud bir insanın başına hər hansı bir əşya ilə su tökməsi şübhəsiz ki, orucu pozmaz.

Əlbəttə, digər bəzi məsələlər ki, xanımlara aid olan aylıq məsələlərdir və s. Bunlar da orucu pozmuş olur. Əgər bir adam oruclu olduğu halda qəsdən özünü qusdurarsa, onun orucu batil olur".

Ayşən Vəli




# Arzusu ürəyində qalan "ERMƏNİ AŞİQİ"

***Fransa prezidentliyinə namizəd Valeri Pekressin arzuları ürəyində qaldı və istəyinə çata bilmədi. Onun bir qədər əvvəl Qarabağa məlum qanunsuz səfərində məqsəd erməni əsillilərin köməyi ilə prezident kürsüsünə oturmaq olsa da bu arzularının da, səfərinin də puça çıxdığı öz təsdiqini tapdı. Ermənilərdən istifadə etməklə prezident olmaq istəyən Valeri Pekress bu ilin aprel ayında belə bir mövcud duruma düşəcəyini gümanına belə gətirə bilməzdi, amma reallıq göstərir ki, Fransada seçkilərin ilk turu onun məğlubiyyəti anonsunu verir.***

Azərbaycan-Fransa münasibətlərini daha da gərginləşdirmək, rus hərbçilərinin Qarabağda söz, qərar sahibi olduğu təəssüratı yaratmaq, dırnaqarası "status" məsələsini gündəmə daşımaq, erməniləri bu yolla ürəkləndirmək istəyən Pekressin ən ümdə məqsədi ilk növbədə bu əməllərlə ermənilərin ürəyini almaq və onların köməyi ilə seçkilərdə, prezident seçkilərində qalib gəlmək olub. Məsələ burasındadır ki, Fransa erməni lobbisinin mvcudluğunu, fəaliyyətini nəzərə alan prezidentliyə namizəd olan bu qadın bir çox yanlışlıqlara yol verdiyini gec də olsa anlamalıdır. Anlamalıdır ki, nə Azərbaycanın bölgədə yaratdığı reallıqlar dəyişən deyil, nə də artıq erməniləri arxalanmağın mənası yoxdur, çünki onlar özləri indi arxasız, dayaqsız qalıblar və hansısa dayağa ehtiyac duyurlar.

Aprel ayında keçirilməsi nəzərdə tutulan prezident seçkisi öncəsi bu namizədin Qarabağa qanunsuz səfər etməsi Fransada yaşayan ermənilərin, ümumilikdə erməni lobbisinin maddi və seçici dəstəyini qazanmağa hesablanmışdı, amma nəticələr bunun əksini ortaya qoydu. Bələki, hiyləgərliyinin və qanunsuz, çirkin oyunlarının nəticəsi Perkess üçün heç də arzuolunan olmadı və o uduzacağını bəri başdan, yeni elə seçkilərin birinci turundan yaxşıca anladı. Qanunsuz olaraq və qaçaqmalçılıq yolu ilə, məhz sülhməramlıların köməyi ilə Qarabağa gəlişi təmin edilən bu rusiyayönümlü namizəd Fransada son günlər keçirilən seçki zamanı öz yerini görmüş oldu. Daha dəqiq desək, Perkess seçkilərin ilk turunun nəticələrinə görə 4,6 faiz səs qazanmış oldu və bu onun yerinin harada olduğu anlamına gəlir. Eləcə də Fransada prezident seçkilərinə namizəd olaraq qoşulan və öz istəyinə nail olmaq üçün Qarabağ ərazisinə qanunsuz şəkildə daxil olmaq qədər özünü aşağılayan, alçaldan bu qadına indi də fransalı seçilər tərəfindən yeri göstərildi və "erməni aşiqi" anladı ki, arzusu ürəyində qalır. Yəni, 27,6 faiz səslə Emmanuel Makronun, 23,4 faiz səslə Marin Le Penin ikinci tura keçməsi fonunda Perkess özünün kənarda qalacağını yaxşı başa düşüb. Onu da başa düşüb ki, qanunsuz şəkildə Qarabağ ərazisinə daxil olması ilə özünü alçaltması belə ona kömək edə bilməyib və ona elə aşağılanmaq qalıb və eyni ilə seçkinin birinci tutu da onu sözün hər mənasında aşağıladı.

Ümimiyyətlə, Fransada prezident seçkilərinin və prezident seçiləcək namizədin Azərbaycana, yaxud da regiona heç bir təsiri ola bilməz. Azərbaycanın yaratdığı reallıqlar bütün dünyada tanınır və qəbul olunur. Doğrudur, Fransa hər zaman Ermənistanın haqsız olan mövqeyini müdafiə edən dövlət kimi tanınır, amma rəsmi Paris artıq hadisələrə təsir gücünə malik deyil və nə aparıcı qüvvə, nə də oyunçu statusunda belə sayılmır. Makron hökuməti belə müəyyən hədd daxilində hərəkət edə bildi və bundan artığına nail ola bilmədi. Çünki, ölkəmizin yaratdığı reallıqlar qarşısında bir növ fəaliyyətinin nəticəsiz olduğunu anladı.

Fransada keçirilən prezident seçkilərinin birinci turu göstərdi ki, bu ayın, aprel ayının 24-də keçiriləcək seçkidə Makronun qalib gələcəyinə fransızların daha böyük ümidləri var. Hər bir halda ən pessimist proqnozlara görə belə ikinci turda Makron 5-7 faiz səs üstünlüyü ilə qalib gələcəyi gözlənilir. Məsələ burasındadır ki, bütün bunlar Qaarabağa qanunsuz səfər edən Perkesin birmənalı şəkildə məğlubiyyətindən xəbər verir. İstənilən halda Valeri Perkes uduzmuş kimi qəbul olunur və bunu özü də başa düşür. Bir sözlə, "erməni aşiqi" yaxşı başa düşür ki, bütün çirkin əməllərinə, özü-özünü aşağılayıcı addımlarına rağmən bütün arzuları ürəyində qalır, puça çıxır. Daha dəqiq desək, Qarabağa qanunsuz səfər edən bu fransalı namizədin çirkin addımları özünə qaldı və bunu fransız seçicilər özləri ona başa saldılar. Başa saldılar ki, çirkin siyasəti ona öz arzularına çatmasına kömək edə bilməz.

***İnam Hacıyev***

## Modest Kolerov: "Minsk qrupu dekorasiya kimi istifadə edilir"



"Rusiya delimitasiyanın vacibliyi barədə fikir bildirib, lakin Brüssel memorandumu bunu publik şəkildə vacibə çevirdi. Deməli, siyasi məsuliyyətin tamamı Avropa İttifaqı üzərindədir". SİA xəbər verir ki, bu sözləri NEWS.am-a ermənilərə yaxınlığı ilə seçilən "Regnum" informasiya agentliyinin baş redaktoru Modest Kolerov deyib.

"Bununla yanaşı, delimitasiya ilə bağlı danışıqların özü illərlə gedə bilər, bu danışıqlar uzunmüddətlidir. Yalnız bundan sonra delimitasiyanın nəticələri, yəni yerlərdəki demarkasiya ilə bağlı da həmin illər tələb ediləcək. Məhz bundan sonra ritorika üzərində qurulmuş deyil, əsl sülh sazişi mümkündür", deyə Kolerov bildirib. Onun sözlərinə görə, Azərbaycanın vaxtı çoxdur. Belə ki, özünün əsas suallarını həll edib. Belə ki, İrəvanın vasitəçilik mərkəzini Rusiyanın əlindən Aİ-yə dəyişməsinə baxmayaraq (Azərbaycanın-R.R.) tələsməyə ehtiyacı yoxdur.

Kolerov bir daha deyib ki, vasitəçilik Minsk qrupunda olan Rusiyanın əlindən qrupun digər təmsilçiləri olan Fransanın və ABŞ-ın əlinə deyil, məhz Avropa İttifaqının əlinə keçid edib: "Bəs Avropa İttifaqının buraya hansı aidiyyatı var? O haradadır? ATƏT-in Minsk qrupu Avropa İttifaqı, Birləşmiş Ştatlar deyil və onlar da Avropa İttifaqı deyillər. Yəni Minsk qrupu Fransanın və ABŞ-ın bir hissəsi olaraq dekorasiya kimi istifadə edilir, real vasitəçilik isə Aİ-nin əlinə keçid edir. Bu necədir? Bu hansısa yenilikdir, inqilabi yenilik. Kimsə Ermənistanı Aİ-yə qəbul edir? Yoxsa Ermənistanın Aİ ilə assosiasiyası nə isə verəcək?...", deyə "Regnum"un baş redaktoru sual edib. O suallarını davam edib: "Avropa İttifaqının neçə min sülhməramlısı Qarabağda dayanır? Sıfır. Ermənistan Avropa İttifaqının vasitəçiliyi ilə nəyə ümid edir? Mən bilmirəm. Nədir? Nəyin xətrinə? Kim-kimə nə söz verib? Heç kim heç kimə heç vaxt söz verməyib".

Onun sözlərinə görə, Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları qarşılığında qazın və neftin nəqlinin Aİ-yə nəqlində mənfi tərəflər əks olunacaq, Azərbaycan isə Avropa İttifaqının neft-qaz üzrə sevimli rəfiqinə çevrilir.

"Siz demək istəyirsiniz ki, Aİ-nin iqtisadi maraqları baxımından Ermənistan və Azərbaycan bərabərdirlər? Yox. Budur sərhədlərin təbii vasitəçilik imkanları", deyə Kolerov bildirib.

***Rövşən RƏSULOV***

## "Ermənistan Azərbaycana qarşı bir sıra iddialar irəli sürür"



"Brüssel görüşündən sonra Ermənistan tərəfi xüsusən də Nikol Paşinyan bir sıra iddialar irəli sürür". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli bildirib. Onun sözlərinə görə, ermənilər Azərbaycan dövlətinə böhtanlar atmağa çalışırlar: "Məsələn, guya azərbaycanlılar ermənilərin etnik təmizlənməsini həyata keçirib, guya azərbaycanlılar erməniləri tamamilə Qarabağın dağlıq hissəsindən qovub çıxarmaq istəyir. Amma etnik təmizlənmənin ən böyüyü azərbaylanlılara qarşı, Azərbaycan dövlətinə qarşı edilib. 8 rayonumuz işğal edilərkən 1 milyondan artıq insan etnik təmizlənməyə məruz qalıb. Onların 30 mindən çoxu yollarda ağır şəraitdə həlak olublar. Ümumiyyətlə Azərbaycana qarşı tətbiq edilən erməni etnik təmizlənməsi çox ağrılı keçib. Əlbəttə bu proseslərdə ruslar da onlara kömək edib.

Azərbaycan dövləti Fərrux yüksəkliyində, Ağdərə rayonunun bəzi hissələrində qoşunların yerdəyişməsini həyata keçirir. Ermənistanın baş narizi Nikol Paşinyanın Rusiyaya səfəri bir sıra məsələləri özündə ehtiva edir. Nikol Paşinyan Moskvaya səfəri zamanı Qarabağın dağlıq hissəsindəki ermənilərin vəziyyətini müzakirə etmək istəyir. Artıq ruslardan bu istiqamətdə təminatlar alıblar. Lavrov "Biz erməniləri heç kəsin ayağına verməyəcəyik" fikrini işlətməklə bir növ Azərbaycanı təhdid edib. Rusiya Ukrayna hadisələrindən sonra da özlərini sakit aparmaq istəmirlər. Azərbaycan dövlətinə qarşı məkirli niyyətlər güdürlər".

***Abutel İlhamqızı***



# Boşanma, yoxsa ailə faciəsi?

ARAŞDIRMA

**Boşanan qadınların həyatında dəyişən amillər kişilərdən fərqlidir. Boşanan hər qadının fərqli problemləri olur. Yaxşı sosial dəstək və mübarizə bacarıqları üstün olanlar bu vəziyyəti daha yaxşı idarə edir. Lakin onlar yenə də əziyyət çəkirlər. Bəlkə də bu əziyyət qadınların həyatdakı bir çox problemlərə bundan sonra təkbaşına sinə gərməsi ilə əlaqəlidir.**

Boşanma insan psixologiyasına sərt şəkildə zərər verir. Günümüzdə boşanan qadının ən böyük problemi cəmiyyətin



ona olan baxışıdır. Cəmiyyət nə qədər inkişaf etsə də bəzi insanlar hələ də bu halları normal qarşılamır. Bu, hər bir sosial-iqtisadi təbəqənin ən mühüm problemidir. Təəssüf ki, bəzi kişilərin gözündə o, boşanmış və tez əldə edilə bilən qadın kimi görünür. Həm də digər qadınların nəzərində boşanmış qadın, partnyoru üçün təhlükə hesab olunur. Bunlar boşanma yükü ilə yanaşı əlavə bir yük də gətirir. Nəticədə boşanan qadının başqa insanlarla ünsiyyəti də azalır.



Keçən ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkəmizdə 5672 nikah və 2417 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5, boşanmaların sayı isə 1,5 olmuşdur.

Boşanmış işsiz qadın ciddi maliyyə problemləri ilə qarşılaşır. Boşanmış, uşağı olan qadın həm işləmək öhdəliyi, həm də övladına baxma qayğısı ilə mübarizə aparır.



Boşanan qadın bu problemlərin öhdəsindən gəlməyə çalışarkən, iç dünyasında tənhalıq hissi, özünə inamının itməsi, gələcəyə dair narahatlıq, qarşılaşacağı insanlara güvənməkdə problemlər, depressiya, təzyiq hissi, cəmiyyətin perspektivi ilə mübarizə, yersiz tələblərlə mübarizə və təqiblər artır.

## Boşanmanın öhdəsindən gəlmək üçün qadınlar nə etməlidirlər?

Boşanan kimi qadın hər şeylə bir anda mübarizə aparmağa çalışmamalıdır. İlk növbədə, bu itki nəticəsində baş verəcək yas prosesi olacaq. Bu dövrdə qərarlar qəbul etmək düzgün deyil. Qəbul etdiyiniz qərarlar yeni həyatınızı formalaşdıracaq. Ona görə də tələsmədən qərarlar qəbul edin.

İşsiz qadınların iş tapması vacibdir. Bu, özünüzə inamınızı artıracaq. Uzun müddətdir qiymətləndirmədiyiniz öz güclü tərəflərinizə diqqət yetirin. Evliliyiniz zamanı etmək istədiyiniz, lakin vaxt tapa bilmədiyiniz fəaliyyətlərlə məşğul olun. Mümkünsə, qısa bir tətil edin.

Ailənizlə danışın, onların dəstəyini almaq vacibdir. Yaxın dostlarınızdan çəkinməyin. Onlarla görüşüb vaxt keçirin. Yeni insanlarla tanış olmaqdan çəkinməyin. Yeni münasibətlərdə öz sərhədlərinizi və qaydalarınızı təyin edin.

## Boşanmanın kişilərə təsiri

Ölkəmizdə boşanmalar hər il artır. İqtisadi problemlər və mübahisələr boşanmaların ən çox yayılmış səbəbləri kimi görünür.

Araşdırmalar göstərir ki, boşanmaların yalnız 9%-i kişilər, 30%-i isə hər iki həyat yoldaşı tərəfindən könüllü olaraq baş verir. Bu o deməkdir ki, kişilər boşanma qərarı verməkdə qadınlardan daha çox çətinlik çəkirlər.

Məşhur inancın əksinə olaraq, kişilər boşanmalardan qadınlara nisbətən daha çox təsirlənir. Bəlkə də evlilik institutu kişiyə daha çox rahatlıq verir və onu itirmək onlar üçün daha çətindir. Boşanma nəticəsində kişilərin yalnız üçdə biri özünü daha azad hiss etdiyi halda, əksəriyyəti sıxıntılı hiss edir.

Dünən Qubada bir qadın qızı boşandığı üçün özünü asaraq intihar edib. Deyilənə görə o qızının boşanmasını qəbul etməyərək psixoloji sarsıntı keçirib. Ümumiyyətlə, niyə bəzi ailələr boşanmağa faciə kimi baxır? Boşanmaq dünyanın sonudur? SİA mövzu ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və psixoloqların fikirlərini öyrənib.



**Psixoloq Leyla Əli:** "Son illər boşanan gənc ailələrin sayı durmadan artır. Diqqətimizi çəkən məqamlardan biridə odur ki, hər birimizin çevrəsində, boşanma müddətindən keçən və ya boşanan insanlar var.

Cütlüklərin ayrılması məsələsinə isə hər iki tərəfin valideyninin baxışı fərqli olur. Bəzi ailələr üçün xüsusilə qızının boşanması ölümə bərabər haldır. Yaşlı nəsildən eşitdiyimiz sözlər "geri qayıda bilməzsən", "bu evə ancaq kəfənin gələ bilər" və s. Bu məqamlarda tək cütlük yox eyni zamanda boşanmaq üzrə olan ailədəki uşaqların psixologiyası ciddi zədə alır və gələcəkdə onlarında evlilik həyatına təsir edir.

Boşanmanın səbəblərinə sosial durum, mənəvi-fiziki uyğunsuzluq, cütlüklərin böyüklərin istəyi ilə qısa tanışlıq müddətindən sonra ailə qurmasını misal gətirmək olar.

Boşanma ər və arvadın heç bir bağının qalmaması ortaq uşaqların haqları qalmaq şərti ilə evliliyin sonlandırılması və tərəflərin yenidən ailə qurmasına imkan verən prosesdir. Boşanma öncəsi və sonrası ailənin hər üzvünə psixoloji sarsıntı yaşadan qərardır.

*Ardı Səh. 12*

# Boşanma, yoxsa ailə faciəsi?

Əvvəli Səh. 11

Boşanma müddətində xəyal qırıqlığı, yadlaşma, iztirab, depressiv hallar, çarəsizlik, ümidsizlik, aqressiya hətta intihara aparan davranışlar da müşahidə olunmaqdadır. Çox zaman boşanan cütlüklərdə uğursuzluq hissi yaşanır. Mən bacarmadım düşüncəsi və iqtisadi sosial duyğusal adaptasiyada çətinliklər yaşanır. Evlilikdən öncə və sonra psixoloqa müraciət etmək gələcəkdə yaranan problemlərin qarşısını alır".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Ümumiyyətlə, hər adam intihar etmir. Mən intihar məsələsini çox araşdırmışam. O adamlar intihar edir ki, onların içində psixoloji olaraq gizli şəkildə, yəni



özü də bilmədən intihara meyllilik olur. Bəzi mühit bu meylliliyi bloklayır, bəzisi onun inkişafına şərait yaradır. Burada da alınan informasiyalar böyük rol oynayır. İntiharda əsas məsələ odur ki, insan indiki vaxtda özünü cəmiyyətdə təsdiq edə bilmir, sabaha da ümidləri az olur. Ona görə konkret olaraq bu qadının intiharı ilə bağlı onu deyə bilərəm ki, psixoloji durumu elə imiş ki, qızını çox istəyirmiş və onda intihara meyillilik amili olub. Baş verənlər onun əsəblərini daha da gərginləşdirib. Boşanan qadınlar barədə deyilənlər isə onu bir az da intihara sürükləyib. Məsələn, onun üstünlük verdiyi dəyərlər də fərqli olub. Yəni, o bilsəydi ki, qız bu gün boşanır sonra xoşbəxt olacaq, bu işə əl atmazdı. Yəqin ki, qızının boşanması ilə o xoşagəlməz şeylər düşünüb və birdən-birə daxilindəki intihara meyillilik amilini fəallaşdırıb. O fəallaşandan sonra insan artıq özünü idarə edə bilmir.

Çox təəsüf ki, bizdə ailə dəyərləri sürətlə dəyişir və ailə institutumuz zəifləyib. Çünki Azərbaycan mədəniyyəti min illərdir ailə dəyərləri üzərində formalaşıb. Ailə institutunun dağılması Azərbaycan mədəniyyəti üçün xoşagəlməz bir vəziyyət yaradacaq və bunun nəticələri də o qədər ürəkaçan deyil. Deyək ki, Azərbaycandakı boşanma ilə Fransadakı, Belçikadakı boşanma eyni deyil. Bunlar insanların həyatına fərqli təsirlər edir. Boşananda iki insan boşanmır ki, deyəsən dünyanın sonudur.

Əgər o ailədə uşaq varsa boşanma böyük faciədir. Çünki sən qadını boşaya bilərsən, amma uşağını boşamırsan. Ona görə körpə yaşlı uşağın anasını boşamaq düzgün deyil, çox çətindir. Bundan oğlan uşağı da çox böyük zərbə alır, psixoloji sarsıntı keçirirlər. Hətta anası başqa kişilərlə görüşən oğlan uşaqlarında çox böyük bir xoşagəlməz hadisə baş verir və qız uşaqlarının da qəlbi qırıq olur. Ona görə də Azərbaycanda boşanma hadisəsi dünyanın sonu deyil, amma bir çox şeylərin sonudur. Heyif ki, bizdə ailə institutunu qorumaq üçün lazımi işlər getmir. Yəni indiki mürəkkəbləşən, həssaslaşan cəmiyyətdə ailə institutunu qorumaq üçün tamam başqa işlər görülməlidir. Hər halda bir yerdə yaşayıb bir-birinə düşmən olmağın özü də bir ayrı problemdir. Məsələn, ərlə-arvad bütün günü dalaşırsa uşağın əsəbləri daha da pozula bilir. Ona görə onların boşanması zərurət olur və arzu edək ki, belə hallar olmasın. Bunun üçün əvvəldən ailə quranda ehtiyatlı olmaq lazımdır. Hər adamla ailə qurmaq doğru deyil".

**Psixoloq Zeynəb Eyyubova:** "Azərbaycanda boşanma mədəniyyəti adlı bir tendensiya yoxdur. Ölkəmizdə boşanma dünyanın sonu kimi qələmə verilir. Biz də fərd olaraq həm özümüzün, həm də övladımızın boşanmasını qəbul edə bilirik.



Əgər insan xoşbəxt deyilsə, qarşısındakı ilə ünsiyyət qurmağa məcbur deyil. İnsan xoşbəxt olduğu yerdə olmalıdır. Əgər bu mədəniyyət insanlara aşılansa, düşünürəm ki bu problemlər də aradan qalxar".

***Ayşən Vəli***

## "Artan qaz qiymətləri arxasınca neftin qiymətini də aparır"

**"Dünya bazarında neft də, qaz da artıq bahalaşıb. Faktiki olaraq təqribən 7 aydır ki, bahalaşma yüksək qiymətlər dövrünü yaşayır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı İlham Şaban bildirib.**



İQTİSADÇI ŞƏRH ETDİ

Onun sözlərinə görə, bahalaşmanın bir neçə səbəbləri var: "Birinci səbəb qazla bağlıdır. Qazın qiymətləri artıq 2021-ci il oktyabr ayında rekordlar vurmuşdu, oktyabrın 6-da isə 2000 dollara çatmışdı. Bu da ondan qaynaqlanırdı ki, qarşıdan qış gəlirdi, yeraltı qaz anbarlarında Avropanın yetərincə qazı yox idi və bazarda da bir qorxu yaranmışdı. İkinci bir tərəfdən də Avropa ilə Rusiya arasında gərginlik yaşanırdı. Bunun nəticəsində qazın qiyməti bu qədər qalxmışdı. Artan qaz qiymətləri arxasınca neftin qiymətini də get-gedə artırırdı. Çünki bəzi ölkələr, şirkətlər, qurumlar artıq qazı neft məhsulları, yəni mazutla əvəz edirdilər. Nəticə etibarilə neftə tələbat artırdı. Sonda isə o həddə gəlib çatdı ki, Rusiya ilə Ukrayna arasında müharibə baş verdi. Bu isə qiymətləri tamamilə yeni bir fazaya keçirtdi. Artıq müharibə başlamamış belə yəni fevralın 24-dən bir neçə gün əvvəl brend markalı neft 100 dollar həddini keçdi. Yəni belə bir qiymət sonuncu dəfə 4 sentyabr 2014-cü il tarixində qeydə alınmışdı. Ondan sonrakı dövrdə ilk dəfə idi ki, 100 dollardan yuxarı həddə çatdı. İki gün öncə isə neft qiymətləri 100 dollardan aşağı həddə ticarət edilməyə başladı. Hazırda neft qiymətləri 100 dollardan yuxarı deyil, aşağı ticarət edilir.

Ötən ilin müvafiq dövrü ilə müqayisə etsək, neft qiymətləri 50 faiz artım nümayiş etdirib. Təbii ki, buna rəvac verən əsas səbəb Qərblə Şərq arasında deyil. Qərb Rusiyanın enerjidən siyasi məqsədlərlə istifadə etmək marağından uzaqlaşmaq üçün get-gedə onun enerjisindən imtina edir. Buna görə də yaxın bir neçə il ərzində hesab edirəm ki, neftin də, qazın da qiyməti baha olaraq qalacaq. O baxımdan ki, Avropa özü üçün enerji daşıyıcılarının yeni logistikasını müəyyənləşdirəcək və onu nizama salana qədər qiymətlər baha olaraq qalacaq.

Dünyada enerjinin paylanmasının yeni bir düzəni yaranacaq. Bu baxımdan, Azərbaycan üçün əlverişli şəraitdir. Biz nefti, qazı baha satmaq imkanı əldə edirik. Əlavə qazanc həm ölkənin valyuta ehtiyatlarını artırır, həm də ölkə daxilində imkan verir ki, qarşısında duran vəzifələri böyük manevr imkanları hesabına həyata keçirsin".

***Səbinə***

## Valideynlə uşaq dost olmamalıdır

**"Yeniyetməlik dövründə uşaqlarda ümumi yaş krizisləri baş verir, böyümə sindromları yaranır. Bu dövrdə uşaqların aqressiv olması valideyndə əks reaksiyanı yaradır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova bildirib.**

Onun sözlərinə görə, bu zaman uşaq lazım olan şeyi etmir, hətta tamamilə əks bir hərəkət edir: "Yeniyetməlik dövründə uşaqlarda hormonal, psixoloji dəyişikliklər olduğuna görə valideyn daha təmkinli yanaşmalıdır. Valideyn nəyisə uşağa məcbur etməməlidir. Bütün gün məsləhət, danlama xarakterli işlər görməməlidir. Onun etdiyi səhvləri insanların içərisində deyil, kənarda bildirməlidirlər. Bu dövrdə uşaqlara mülayim davranmaq lazımdır. Eyni zamanda, valideynlər uşaqlarını müqayisə etməkdən çəkinməlidir. Valideynlər çox vaxt bilmədən də olsa, uşaqlarını müqayisə edirlər. Bu isə təbii ki, uşaqlara mənfi təsir göstərir.

Buna görə də uşaqlara hər hansı bir uğursuzluğu olduqda, ona qarşı aqresiv yanaşmır və yaxud da günahlandırma hissi ilə yanaşmamalıyıq. Uşaqları daha çox anlamağa çalışmalıyıq. Uşaqların dost əhatəsində onların özünü necə gördüklərinə fikir verməli, uşaq özünü necə təstiq edir, uşaqlar arasında özünü necə görür bunları bilməliyik. Eyni zamanda, valideynlə uşaq dost olmalı deyil. Çünki dost olduqda onlar arasında artıq pərdə götürülür. Bunlarla yanaşı uşaq bilməlidir ki, qarşı tərəf ondan daha böyükdür. Buna görə də məsləhətə ehtiyacı olduğunu da anlamalıdır".

***S. Hüseynli***



ANALİTİK+AKTUAL

# Zaman hansı tərəfin xeyrinə işləyir, Azərbaycanın, yoxsa Ermənistanın?

***44** günlük müharibəyə qədər və ondan sonrakı müddətdə həm Azərbaycan, həm də Ermənistan cəmiyyəti daxilində aparılan çoxsaylı müzakirələrdə nəticə olaraq belə bir sual yaranırdı - zaman hansı tərəfin xeyrinə işləyir? Yaxud, taleyüklü həll addımının atılması yönündə tələsməyə ehtiyac varmı, yaxud həmin tələskənliyi səbrlə gözləyib daha yaxşı mövqe tutmaq daha məqbuldur? Məhz bu sualın cavabını tapmaq üçün sözügedən proseslər istiqamətində müəyyən araşdırmalar aparmaqla suallara cavab tapmaq olar.*



**Bakı İrəvana əməli şəkildə sübut edir ki, istər onunla, istərsə də onsuz - qarşısına qoyduğu bütün məqsəd və məramlarını icra edəcək!**

Fakt budur ki, Azərbaycan 44 günlük müharibəyə qədər xalqı, cəmiyyəti işğal altında qalmış torpaqlarımızın azadlığı uğrunda konsolidasiya vəziyyətinə gətirmək, vəhdət şəklində birləşdirmək siyasətini uğurla apardı və bu siyasət uzun illər tətbiq edildi, ölkədə xüsusən gənclərimizə vətənpərvərlik, patriotluq ruhu aşılandı.

O cümlədən, işğal dövründə təmas xətlərində müdafiə istehkamları, hərbi infrastrukturlar, dayaq məntəqələri inşa edildi, strateji əhəmiyyətli ərazilərdə müdafiə xarakterli tədbirlər reallaşdırıldı. Əbəs deyil ki, 2016-cı ilin 4 günlük Aprel müharibəsində qazanılan uğur da həmin reallıqlar nəticəsində əldə edildi və 2020-ci ilin 27 sentyabrına qədər daha mütəşəkkil hazırıq proseslərinə başlanıldı.

### İrəvan demək olar ki, 30 ildir ki, bütün regional layihələrdən kənar qalıb

Azərbaycanın daha bir uğurlu strategiyası Ermənistanın işğalçılığına qarşı təcridetmə siyasətini reallaşdırması olub. Bu vasitə ilə iqtisadiyyatımız dünya miqyasında öz sözünü deyib, bir sıra nüfuzlu xarici şirkətlər Azərbaycanla işbirliyinə imza atıb. İrəvan demək olar ki, 30 ildir ki, bütün regional layihələrdən kənar qalıb. Bütün bunlarla yanaşı, əhalimizin sayı sürətlə artıb, region dövlətləri və güc mərkəzləri ilə qarşılıqlı münasibətlər ortamı kifayət qədər münbit şəkildə qurulub, təmin edilib.

Və ən əsası, güclü Silahlı Qüvvələrin bazası hərtərəfli və təməli şəkildə möhkəmləndirilib, qüdrətli ordu quruculuğu sistematik şəkildə və ən müasir tələblərə cavab verən mühitdə həyata keçirilib, ordumuz dünyanın ən güclü orduları sıralamasında üstün mövqelərə qədər yüksəlib.

### Bəs Ermənistan nəyə nail olub?

İşğalçılıq siyasətlərini yürüdərək 30 il boyunca öz kirli məqsədlərini realizə etməyə çalışan Ermənistan cəmiyyəti və bu günə qədər mövcud olan hakimiyyətləri elə sanırdılar ki, Azərbaycan xalqı ümumiyyətlə, Qarabağı unudacaqlar və mövcud işğal situasiyası ilə barışacaqlar.

Ancaq buna baxmayaraq, bir sıra Qərb havadarlarına arxalanaraq separatçı rejimə "humanitar" adı altında maliyyə vəsaitlərinin qanunsuz şəkildə Qarabağa göndərilməsinə nail olublar. Bu qanunsuz vəsaitlərin əsas xərci Qarabağda müdafiə istehkamlarının, bunkerlərin qurulmasına və silahlanmaya istifadə olunub. Üstəlik, BMT-nin çıxardığı 4 qətnamənin də yerinə yetirilməməsi istiqamətində ATƏT-in Minsk qrupu əlində olan bütün imkanlarından maksimum şəkildə istifadə edirdi.

Habelə, ermənilər ən çox halda Rusiya ilə Türkiyənin arasında hərbi münaqişənin yaranacağına ümid edirdilər və bu münaqişədən Azərbaycanın da hədəfə alınacağını utopik xəyallarında canlandırırdılar.

### Və 2020-ci ilin payızında hər kəs zamanın kimin tərəfinə işlədiyinin şahidi oldu!

Maraqlıdır və nə qədər qəribə görünsə də, müharibədən sonra zamanın məhz Azərbaycanın xeyrinə işləməsinə baxmayaraq, Ermənistan hələ də köhnə düşüncəsində qalır və belə hesab edir ki, zaman onların xeyrinə işləyir. Lakin 44 günlük müharibədən sonra Azərbaycan təşəbbüsü boş buraxmayaraq Ermənistana qarşı təsir və təzyiq elementlərini yeni mexanizm qismində işlətməyə başladı. Bəs bu mexanizmlər hansılardır?

İlk növbədə, Ermənistanın blokirovka vəziyyətində saxlanması davam etdi və Azərbaycan İranla memorandum imzalayaraq iqtisadi və nəqliyyat potensialını istifadə etməsi üçün yeni xəritə müəyyənləşdirdi.

### Ermənistan tərəfindən prosesin uzadılması, danışıqlar mərhələsindəki çək-çevirləri İrəvanın növbəti itkiləri ilə nəticələnəcək



Amma bu da Ermənistana dərs olmadı və "erməni ümidi" deyilən utopiyalar hələ də bu ölkədəki siyasi güclərin düşüncələrində cövlan edir. Bir tərəfdən Rusiyanın onlara müttəfiq olduğunu bəyan edərək onları bu vəziyyətdən Kremlin çıxara biləcəyini deyir, digər tərəfdən, Qərbin Rusiyanı məğlub edəcəyini iddia kimi irəli sürməklə xəyallarını boş təsəvvürlərində canlandırırlar.

Azərbaycan isə real işlərini həyata keçirir - Qarabağ regionunda azad etdiyi torpaqların bərpası prosesini reallaşdırır və paralel olaraq Ermənistana göstərir ki, istər onunla, istərsə də onsuz - qarşısına qoyduğu bütün məqsəd və məramlarını icra edəcək. Daha dəqiq desək, Ermənistan tərəfindən prosesin uzadılması, danışıqlar mərhələsindəki çək-çevirləri İrəvanın növbəti itkiləri ilə nəticələnəcək.

Bu baxımdan da əminliklə deyə bilərik ki, zamandan ən səmərəli yararlanan da məhz Azərbaycandır və ona görə də zamanın Azərbaycanın xeyrinə irəlilədiyini şübhəsiz olaraq vurğulaya bilərik.

***Rövşən RƏSULOV***

# Oxumuram, əl çəkin!

*Felyeton*




Bir zamanlar ziyalılarımız məktəb açıb millətimizi savadlandırmaq fikrinə düşəndə bu yolda nə əziyyətlər çəkdilər, bilməyən yoxdur. Həm də o vaxt dərd tək məktəbin yer dərdi deyildi ki, indiki repetitorlar kimi evinin bir otağında stol-stulları düzüb dərs keçərdilər. Bunun icazəsi vardı, çarı, mülkədarı, nə bilim nələri vardı. Hələ molla məktəbləri də vardı ki, cahil insanlar uşaqlarını yalnız həmin məktəblərdə oxutdurmaq istəyirdilər. Daha doğrusu, təkcə o məktəbləri məktəb hesab edirdilər. Ziyalılarımızın açacağı məktəbləri şeytan yuvası adlandırırdılar. Onların təklif etdiyi məktəbləri övladlarını doğru yoldan sapdırmaq kimi düşünürdülər.

Bəli, məktəb açmağın belə çətinlikləri vardı. Maarifpərvər ziyalılarımız birinci maarif toxumunu səpdilər. Yazıq toxum, nə edərdi, gərək cücərməsi üçün münbit yer ola axı. Çox çətinliklə, illə sonra ordan-burdan cücərməyə başladı. Sonra da ki, icazə məsələsi. Bizim o fədakar ziyalılarımız da dəridən-qabıqdan çıxırdılar ki, nəyin bahasına olursa olsun, məktəblər açılsın, millət maarif, elm görsün. Bunun üçün həbslər görmədilər, söyülmədilər, təhqir olunmadılar, kənddən-kəsəkdən qovulmadılar? Başlarına gəlməyən oyun qaldımı məgər?

Nəhayət ki, bir-iki məktəb açdıra bildilər. Bu dəfə də qaldılar dini əsla doğru anlamayanların, ondan öz istəyi kimi istifadə edənlərin əlində. Uşaq dedi, mən məktəbə getmək istəyirəm, ana dedi, qoymaram, Allah bizim cəzamızı verər. Yazıq ata başa düşmürdü ki, elm elə Qurani-Kərimdən gəlir. Nə isə... Bu İslamı hələ də anlamayanlar var.

Beləliklə, bizim ziyalılarımız həmin ataların üzərinə getdikcə, onlar ay qardaş "Nə istəyirsiniz, oxutmuram, əl çəkin",- dedilər. Oğul mənimdir, mən bilərəm, nə istəyirsiniz? Mən bilərəm övladımı molla məktəbində oxutduraram, yoxsa sizin şeydan yuvası olan məktəbinizdə. Beləcə çox uzun illərin mücadiləsi lazım gəldi insanların beynində elm rüşeymlərinin cücərməsinə. Amma axır ki, cücərdi. Sonda hamı uşağını məktəblərə təhsil almağa göndərdi. İndi o əsrlərin üzərindən neçə əsrlər keçib. Ziyalılarımızın o zəhmətinin əsrlərdir, faydasını görür bu millət.

Bəli, məktəblərin sayı-hesabı yoxdur. Hamı da uşağını göndərir məktəbə. Uşaqlar da sağ olsunlar, oxuyanı da var, oxumayanı da. Mövzum bu deyil.Yuxarıda danışdıqlarımı havayıdan söyləmirdim. Lakin indi də başqa bir bəlaya düşmüşük axı... Ölkəmizin bütün məktəblərində, şəhərlərimizdə rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə kitabxanalar fəaliyyət göstərir. Əvvəllər uşaqlı-böyüklü hamı o kitabxanaları ən sevdikləri ünvana çevirmişdilər. Kitab qalmırdı, daşıyıb evlərə aparır, oxuyur, qaytarır, dəyişir, bir də aparırdılar. İndi artıq həmin kitabxanaların qapısını açıb içəri girən yoxdur. Kitabxanalarda da ki, tapa bilməyəcəyin ədəbiyyat, kitab yoxdur. Dövlətimiz tərəfindən kitabxanalara latın qrafikası ilə minlərlə kitab hədiyyə olunub, istifadə üçün hər cür şərait yaradılıb. Gözəl, işıqlı oxu zalları, hərtərəfli şəraiti olan kitabxanalarımız var. Bu kitabxanalarda milyonlarla kitab oxucu yolunu gözləyir. Lakin o qapılar açılırmı?

Bir vaxtlar məktəblərimiz üçün "Oxutmuram əl çəkin" sözlərini eşidirdik, indi isə sanki bütün kitabxanalardan oxucuların səsi gəlir: "Oxumuram, əl çəkin". Çox düşündüm, çox daşındım, bir çarə tapa bilmədim ki, görəsən nə edə bilərik ki, insanları internet, telefon, kompyuter başından ayırıb bu kitabxanalara dəvət edə bilək? Elə ona görə də bir vaxtlar məktəb qapılarını aça bilən ziyalılarımızı xatırladım. Bax bizə onlar kimi ziyalılar lazımdır ki, bəlkə bu kitabxanaların da qapılarını açmağı bacaralar.

Qaldı oxucuya, axı niyə gözlərini kitabdan yana kor eləsin ki, millət? Onsuz da indi əksəriyyətin gözlərini internet xarab edib də, durub bir də kitab vərəqləyəcəklər? İnternetdə, sosial şəbəkələrdə bir-birindən maraqlı xəbərlər, xüsusilə də şou xəbərlər var. Mən də kitab oxumaqdan danışıram. İndi yenə oxucular mənə geridə qalmış deyəcəklər, mən də ki, inciyəcəm. İnciyəcəm, ya yox? Nə isə... Deyəcəklər ki, sən bizdən nə istəyirsən, bir sözü neçə dəfə demək olar, oxumuruq da, əl çək!

***Mətanət MƏMMƏDOVA***

SİYASİ RAKURS

# Lavrov və Blinken Paşinyanı sıxır

## Artıq həm ABŞ, həm də Rusiya Ermənistanı heçə sayır və gündəmlərindən çıxdaş edirlər

**Bir neçə gün əvvəl Ermənistan və Rusiya iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasının 30-cu ildönümünü qeyd etdilər. Hətta bunun şərəfinə böyük bir konsert də təşkil olundu. Ardınca isə İrəvanda həm Ukraynadakı müharibəyə, həm də Azərbaycanla müttəfiqliyə qarşı anti-Rusiya mitinqi keçirildi...**

### Və buyurun, Paşinyan xalça üzərinə çağırılır!

Məlum olduğu kimi, erməni baş nazirinin Moskvaya səfəri aprelin 19-na təyin olunub. Lakin buna qədər Rusiya XİN-nin rəhbəri Sergey Lavrov həmkarı Ararat Mirzoyanın vasitəsi ilə baş nazir Nikol Paşinyana dəqiq ismarıc göndərib - Kreml onun (Paşinyanın) Brüsseldə nə danışmasına əhəmiyyətsiz baxır və erməni baş naziri Rusyanın razılığı olmadan heç nə edə bilməz.

Digər tərəfdən, Mirzoyanla görüşü zamanı Lavrov hətta diplomatik norma hədlərini aşmaqla Paşinyanın diqqətinə çatdırdı ki, onun əsl ağası kimdir. Üstəlik, İrəvan qarşısında Ukrayna böhranı ilə bağlı dəqiq seçim etmək şərti də qoyulub - ya Rusiya, ya da Qərb!

Biz hətta Ermənistanın XİN başçısı Ararat Mirzoyanın Rusiyaya səfəri zamanı onun həmkarı Sergey Lavrovla, eləcə də KTMT-nin baş katibi Stanislav Zasla görüşünü İrəvan üçün "soyuq duş" da adlandıra bilərik. Bütün bunlardan həm də belə nəticə hasil etmək mümkündür ki, Moskva bütün çılpaqlığı ilə Azərbaycanın və Türkiyənin xeyrinə özünün son seçimini edib. Ardıcıl və artan xətlə tətbiq edilən sanksiyalar və s. amillər Kremlə başqa çıxış yolu da qoymayıb.

### Lavrov da ATƏT-in Minsk qrupunun gorbagor olduğunu təsdiqlədisə...

Lavrovun Mirzoyan üzərindən Paşinyana tərəf endirdiyi qurşaqaltı zərbələrinən biri də ATƏT-in Minsk qrupu ilə bağlı oldu. Hətta həmin məsələdə Mirzoyan Lavrova nəyi isə sübut etməyə çalışdı, hətta etiraz belə etdi, amma Rusiya XİN-nin rəhbəri bəyan etdi ki, Fransanın və ABŞ-ın Rusiya ilə əməkdaşlığa son qoymaları faktiki olaraq ATƏT-in Misnk qrupu adlı strukturun öz mövcudluğunu itirməsi ilə nəticələndi. Baxmayaraq ki, Mirzoyan guya onda ATƏT-in Minsk qrupunun Qarabağ mövzusu ilə bağlı əməkdaşlığı davam etdirmək məqsədindən geri çəkilməməsi barədə informasiyanın olduğunu desə də Lavrov bir daha bəyan etdi. SİTAT: "Üçlük həmsədrlər öz mövcudluqlarına son qoyublar və bunu fransızlarla amerikalılaların özləri bəyan ediblər. Mənim üçün bu faktdır. Mən onların bəyanatlarının hansı yöndə səsləndiyini bilmirəm, amma onların öz rusofob məqsədləri xatirinə regionun taleyinə biganə qalmaları faktdır...", deyə Lavrov fikirlərini təxminən bu cür ifadə edib.




### Vaşinqton da zaman-zaman gözlənilməz, yəni İrəvan üçün arzuolunmaz sürprizlər bəxş edir

Artıq o da sirr deyil ki, Rusiyanın Ermənistana təsir mexanizmləri ABŞ-dan daha çoxdur. Amma buna baxmayaraq, Vaşinqton da zaman-zaman gözlənilməz, yəni İrəvan üçün arzuolunmaz sürprizlər bəxş edir. Xüsusilə, son dövrlərdə belə sürprizlərin sayı artmağa başlayıb. ABŞ-ın dövlət katibi Blinken ümumiyyətlə, sözügedən məsələyə, yəni Lavrovun ifadələrinə əhəmiyyət verməyərək, növbətçi, lakin Ermənistana yönəldilmiş birtərəfli bəyanatla kifayətləndi. "Birləşmiş Ştatlar regionda növbəti eskalasiyaların əleyhinədir", deyə o vurğuladı.

Özü də Blinken həmin ifadələrini Azərbaycanın dövlət başçısı ilə telefon danışığı zamanı irəli sürməyib, məhz Ermənistanın baş naziri Nikol Paşinyanla rabitə xəttində olarkən deyib. Və buradan da belə bir məntiqi nəticə hasil etmək olar ki, ABŞ regionda istənilən eskalasiyaya görə məsuliyyəti Bakının deyil, məhz İrəvanın daşıyacağına eyham vurub.

Beləliklə, fakt ortadadır - Ermənistan həm Rusiyanın caynaqları arasında ilişib-qalıb və oradan qurtulması mümkün deyil, digər tərəfdən də ABŞ-ın hədəfinə tuş gəlib. Hər halda, qeyd edilən danılmaz dəlillər və faktlar da bu cür məntiqi sonluğu kifayət qədər ehtiva etməkdədir.

***Rövşən RƏSULOV***

## HƏKİM AÇIQLADI

# Yazda hansı infeksion xəstəliklərə rast gəlinir?

"Yaz aylarında infeksion xəstəliklərin yayılmasının əsas səbəblərindən biri fəsil dəyişkənliyindən irəli gəlir. Yəni, gündəlik temperatur tez-tez dəyişir". Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Xatirə Əliyeva deyib. Onun sözlərinə görə, xarici mühitdə olan temperatur dəyişikliyi insan orqanizminə nisbətən mənfi təsir göstərir və immunitetin zəifləməsinə səbəb olur: "Bu da müxtəlif infeksion xəstəliklərin artması ilə özünü göstərir. İnfeksion xəstəlik dedikdə tək-tək orqanlarda deyil, bütün bədənin orqan və sistemində olan infeksiyalar başa düşülür".



Həkim sözlərinə belə davam edib: "Temperatur dəyişikliyi tez-tez baş verən yaz-payız aylarında rast gəlinən infeksion xəstəliklərin 90 faizinin kəskin resperator virus infeksiyaları və uşaq infeksiyalarından suçiçəyi, qızılca, məxmərəyi misal göstərmək olar. Yaz aylarında ən çox yayılan infeksiya xəstəliyi kəskin resperator virus infeksiyasıdır. Bunlara da qrip, paraqrip, koronavirus, reovirus, adenavirus və s. infeksiyaları aiddir.

Kəskin resperator infeksiyasına yoluxma halı əsasən havadamcı və oral (ağız) yolla baş verir. İnfeksiya mənbəyi, əsasən, xəstəliyə yoluxmuş insandır. Yəni, insandan insana keçir. Yuxarı tənəffüs yollarından keçən virus orada selikli qişanı zədələyir. Bu da özünü burun tutulması, burun axması, boğazda quruluq, quru öskürək kimi göstərir. Selikli qişada məskən salmış viruslar oradan qana keçir. Nəticədə, ürəkbulanma, baş ağrısı, əzələ ağrısı, gözlərdə qaşınma və qızdırma baş verir.

Yoluxucu xəstəliklərin qarşısını almaq üçün ən yaxşı amil profilaktik tədbirlərdir. Bunlara xəstənin izolyasiya olunması, şəxsi gigiyena, tibbi maska istifadəsi, bol maye qəbulu və profilaktik peyvəndlərin vurulması aiddir".

***Ayşən Vəli***

# Erməni təxribatları nə zaman sonlanacaq?

"Ermənistanın təxribatları Paşinyan hakimiyyətinin çıxılmaz durumda olmasından qaynaqlanır. Üçtərəfli bəyanatın imzalanmasından keçən dövr ərzində üzərinə götürdüyü öhdəliklərin icrasıyla bağlı heç bir konkret addım atmayan, daha sonrakı istər Rusiya, istərsə də Brüsseldə keçirilən görüşlərdə isə diplomatik müstəvidə də Azərbaycana uduzan Ermənistan yeganə çıxış yolunu müxtəlif bəhanələrlə vaxtı uzatmaqda görürdü". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.

Onun sözlərinə görə, onlar düşünürdülər ki, Fransanın Avropa İttifaqına rəhbərliyi dövründə bu qurum tərəfindən Azərbaycana təzyiqlər edilməsinə nail olacaqlar və bu təzyiqlər də Paşinyana götürülmüş öhdəliklərdən yan keçmək və ya onları yumşaltmaq imkanı verəcək: "Lakin Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən son iki Brüssel görüşü və həmin görüşlərin nəticəsi olaraq verilmiş bəyanatlar Ermənistanı faktiki olaraq xəyal qırıqlığına uğratdı. Belə ki, bildiyiniz kimi, hər iki bəyanatda da nə "Dağlıq Qarabağ" ifadəsi, nə "status", nə də Ermənistanın bütün vasitələrlə yenidən proseslərə qoşmaq istədiyi "ATƏT Minsk qrupu" haqqında ifadələr yer almadı. Əksinə, son Brüssel görüşü Cənubi Qafqazda geopolitik proseslərin istiqamətini ciddi şəkildə dəyişmək yolunu seçdi və tərəflərin sülh prosesinə başlaması üçün Azərbaycanın təqdim etdiyi 5 maddəlik təkliflər əsas olaraq qəbul edildi. Lakin bu görüşdən sonra Ermənistan tərəfdən, bu dövlətin ayrı-ayrı rəsmiləri tərəfindən səsləndirilən açıqlamalar, verilmiş bəyanalar onu deməyə əsas verir ki, Ermənistan sülhə hazır deyil və bu baxımdan da, münasibətlərin gərginləşməsi ilə sülh danışıqlarını pozmağı hədəfləyib. Lakin təəssüf ki, sülh prosesində maraqlı olmayan təkcə Ermənistan deyil, həm də regionda hərbi mövcudluğunu qoruyub saxlamaq istəyən Rusiyadır. Belə ki, Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi, tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıması və nəticədə sülh sazişinin imzalanması Rusiyanın sülhməramlı missiyasına ehtiyac qalmaması ilə nəticələnəcək. Bu isə o deməkdir ki, Rusiya nəinki indi nəzarət zonasında olan Azərbaycan ərazilərindən, həm də tədricən ABŞ və Avropaya yaxınlaşmaq istəyən Ermənistandan da öz hərbi kontingentini çıxarmaq məcburiyyətində qalacaq. Buna yol verməmək istəməyən Rusiya bütün vasitələrlə prosesin uzadılması üçün səy göstərir. Başqa sözlə, Kreml özünün nəzarətindən kənar aparılan danışıqları, Avropa İttifaqı vasitəçiliyi ilə keçirilən görüşləri və razılaşdırılmış məsələləri Rusiyanın regional maraqlarına açıq təhlükə kimi qəbul edir. Brüssel görüşündən əvvəl və sonra baş verən hadisələr Rusiyanın Cənubi Qafqazda mövqelərini qorumaq üçün hərəkətə keçmək məcburiyyətində qaldığını göstərir. Kreml ABŞ və Qərbin Rusiyanı regiondan sıxışdırmağa, geopolitik proseslərdə oyundankənar vəziyyətə salmağa çalışdığına əmindir. Ona görə də, Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesinə orbitrlik imkanlarının əlindən çıxa biləcəyindən narahat olan Kreml əks addımlar atmağa başlayıb.



Əvvəlcə Ermənistanda Rusiyaya bağlı siyasi qüvvələrin aktivləşdirilməsi ilə Paşinyan hakimiyyətinə "çevriliş mesajı" verildi. Ardınca separatçı rejimin nəzarətində olan ərazilərdəki ermənilərin Rusiya vətəndaşlığını qəbul etmək istəməsi ilə bağlı məsələ dövriyyəyə buraxıldı və nəhayət, Paşinyan hakimiyyətindən Brüssel görüşünə yönəlik hesabat tələb olundu. Bu baxımdan da, 19 apreldə nəzərdə tutulan Paşinyan-Putin görüşünün Ermənistan üçün ağır keçəcəyi şübhəsizdir. Bütün vasitələrlə Ermənistanı nəzarətdə saxlamaq istəyən Rusiyanın rəsmi İrəvana müxtəlif vədlər verdiyi də atrıq gün kimi aydındır. Elə 2 gün əvvəl Lavrov və Mirzoyan arasında keçirilən görüşdə Lavrovun Rusiyanın Ermənistanın müdafiə qabiliyyətinin gücləndirəcəyi və sərhədlərin qorunmasında köməklik göstərməyə davam edəcəyi ilə bağlı bəyanatı onu deməyə əsas verir ki, erməni təxribatlarının davamı gələcək. Ancaq Rusiya xarici işlər nazirinin açıqlamaları reallaşdırılarsa, bu, Kremlin rəsmi Bakı ilə münasibətlərində müəyyən problemlər yarada bilər. Çünki Rusiyanın Ermənistana hərbi dəstəyinin rəsmi Bakı tərəfindən məmnunluq ilə qarşılanmayacağı qətiyyən şübhə doğurmur. Üstəlik, Kremlin belə davranışlarının Azərbaycan və Rusiya arasında imzalanmış müttəfiqlik fəaliyyəti barədə Moskva Bəyannaməsinə uyğun olub-olmadığı da ciddi müzakirə mövzusuna çevrilə bilər".

***Banuçiçək Hüseynli***

# Sosial dövlət siyasəti son 4 ildə: nailiyyətlər, faktlar və reallıqlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb.*

"Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" -Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ***(2018-ci il 11 aprel tarixində andiçmə mərasimindəki çıxışından)***

**I HİSSƏ**

Dörd il əvvəl, 2018-ci ilin aprelində ölkəmizdə keçirilən seçkilərdə cənab İlham Əliyevin ölkə seçicilərinin mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilməsi onun rəhbərliyi ilə 2003-2018-ci illərdə ölkənin nail olduğu dinamik inkişaf kursunun, respublikada bütün sahələrdə, o cümlədən sosial sahədə qazanılmış mühüm nailiyyətlərin uğurla davam etdirilməsinə şərait yaratdı.

Dövlət başçısının tapşırıqları ilə 2018-ci ildən Azərbaycanda başlanan köklü sosial islahatlar vətəndaş rifahı və məmnunluğunun təminatı istiqamətində inqilabi addımların atılmasına, sosial müdafiə və sosial təminat, məşğulluq, əmək münasibətləri, tibbi-sosial reaabilitasiya və sosial sahənin digər sektorları üzrə ötən 4 illik bir dönəmdə ciddi irəliləyişlərə imkan verdi. Əhalinin həssas qruplarının, xüsusilə şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir.



2018-ci il aprelində ölkə Prezidenti seçildikdən sonra onun imzaladığı ilk Fərmanın (19 aprel 2018-ci il tarixli) məhz şəhid ailələri ilə bağlı olması və həmin ailələrə növbəti ciddi dəstək tədbirini nəzərdə tutması da bunu sübut edir.

Fərmanla, həmçinin 2019-cu ilin yanvar ayında imzalanan Fərmanla yeni mühüm sosial müdafiə proqramı icra edildi: 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının -12 min şəhidin 18 mindən çox vərəsəsi 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olundu.

Dövlət başçısının 23 dekabr 2021-ci il tarixli Fərmanı isə 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarının, onlardan vəfat etmiş şəxslərin vərəsələrinin də birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təminatını nəzərdə tutur və bu prosesə də yaxın vaxtlarda başlanacaq.

Eyni zamanda Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı tarixi Zəfər əldə etdiyi, torpaqlarımızın Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad edildiyi 44 günlük Vətən müharibəsində iştirak edən şəxslərə "Müharibə veteranı" adı verilərək onlara Prezidentin aylıq təqaüdü təyin edildi ki, bu da daha bir sosial dəstək proqramı kimi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Şanlı tarixi Zəfər əldə etdiyimiz 44 günlük Vətən müharibəsindən sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı geniş istiqamətləri əhatə edən sosial dəstək proqramı icra olunur. Bu proqram üzrə mühüm sosial dəstək tədbirlərindən biri kimi şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı cənab Prezidentin Sərəncamı ilə 2021-ci ildə 5 dəfə genişlənib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev verilibsə, 2021-ci ildə onlara 3 min mənzil və fərdi ev verilməsi proqramı uğurla icra olunub ki, bu da 2018-ci ilə nisbətən 5 dəfə çoxdur. Ümumən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib.

Eyni zamanda, dövlət başçısının 25 avqust 2021-ci il tarixli Sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Digər həssas qruplardan olanların (gözdən əlilliyi olanlar, dövlət uşaq müəssisələrinin məzunları) da ardıcıl şəkildə mənzillə təminatı həyata keçirilir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olaraq və Heydər Əliyev Fondunun mühüm sosial layihələrindən biri kimi, Abşeron rayonunda çoxmənzilli yaşayış binaları inşa etdirilərək dövlət uşaq müəssisələri məzunlarının istifadəsinə verilib. Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin "Məzun evi" sosial xidmət müəssisəsi kimi fəaliyyət göstərən həmin yaşayış binalarında 365 məzun mənzillə təmin olunub. Bununla yanaşı, müxtəlif ərazilərdəki yeni yaşayış komplekslərində də bu kateqoriyalardan olan şəxslərin mənzillə təminatı işləri davam edir.

Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı tədbirləri də uğurla davam edir. Son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili minik avtomobili ilə təmin edilib.

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminaatı prinsipinin dayanması ölkədə sosial ödənişlərin ardıcıl şəkildə artırılmasında da öz təsdiqini tapır. 2003-2018-ci illərdə ümumi daxili məhsulun 3,2 dəfə artdığı ölkəmizdə əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, əməkhaqları təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdı. 2018-ci ildən sonrakı köklü sosial islahatlar bu istiqamətdə inqilabi irəliləyişlərə nail olunması ilə nəticələnib.

Hələ 2019-cu ildə sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artdı. 2020-ci və 2021-ci illərdə də sosial ödənişlərdə növbəti artımlar (indeksasiya, təqaüd artımları) edildi. Pandemiyanın məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması üçün geniş miqyaslı dəstək proqramları icra olundu. 2022-ci ilin əvvəlindən isə 3,4 milyon şəxsi əhatə əmək haqqı, pensiya və digər sosial ödənişlər artırıldı və bunun üçün də illik əlavə 2,1 mlrd. manat ayrıldı.



Beləliklə, yalnız son 4 ildə minimum əmək haqqı 2,3 dəfə, orta aylıq əmək haqqı 40 faizə yaxın, median əmək haqqı 74 faiz artıb. Minimum pensiyada 2,2 dəfə, orta pensiyada 65 faiz artım, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım baş verib.

Ümumilikdə, 2018-ci ildən sonrakı dövrdə dövlət başçısının imzaladığı fərman və sərəncamlarla ölkə əhalisinin yarısını əhatə edən 3 sosial islahat paket icra olunub və bu paketlərin illik maliyyə dəyəri 6,5 milyard manatdır.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məşğuluq imkanlarının artırılması və qeyri-formal məşğulluğun qarşısının alınması, formal məşğulluğa keçidin stimullaşdırılması istiqamətində görülən kompleks tədbirlər əmək müqavilələrinin sayında artımın da davam etməsinə imkan yaradıb. 2018-22021-ci illərdə əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım qeydə alınıb. İllik əməkhaqqı fondunda isə həmin dövrdə 2 dəfədən çox, 2022-ci ilin ilk rübündə isə 11,1% artım olub.

Dövlət başçısının uğurlu sosial-iqtisadi siyasətinə uyğun olaraq aktiv məşğulluq proqramları da ildən-ilə genişləndirilir.

Prezident İlham Əliyevin Sərəncamı ilə icra olunan özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin məşğulluğunun təminatında, onların kiçik sahibkarlığa çıxışına imkan yaradılmasında mühüm dəstəkdir. 2021-ci ildə 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Ümumilikdə son 4 ildə və cari ilin ilk rübündə 44 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib. Özünüməşğulluq proqramın fəaliyyət sahələrinin sayı da yeni sahələr əlavə edilməklə 44-ə çatdırılıb.

Dövlət başçısının təşəbbüsü və göstərişi ilə icra olunan ödənişli ictimai işlər proqramı da işsiz və işaxtaranların əmək bazarına çıxışına önəmli dəstəkdir. Proqram üzrə 56 min şəxs işlə təmin edilib.

Ölkədə aparılan sosial-iqtisadi islahatların müsbət nəticələri, o cümlədən məşğulluq imkanlarının və əmək haqlarının mütəmadi artımı, əmək münasibətlərində leqallaşmanın genişlənməsi məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda da ciddi artımlarla nəticələnir. 2017-2021-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fonduna sosial sığorta daxilolmalarında 84,3% və ya 1757,68 milyon manatlıq artım olub. Bu da ölkədə sosial sığorta sisteminin davamlı inkişafını təzahür etdirməklə, sosial təminat sisteminin güclənməsinə xidmət edir.

Ardı olacaq

***Elçin***

SON SƏHİFƏ

# Səs

13 aprel
2022-ci il

# Bekhemdən oğluna 500 min dollarlıq hədiyyə!





"İnter Mayami"nin sahibi Devid Bekhem oğlu Bruklin Bekhemə bahalı toy hədiyyəsi edib. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, o, oğluna 500 min dollarlıq 1954 Jaguar XK140 avtomobili alıb.

Bruklin aprelin 9-u milyarder Nelson Peltzin qızı Nikola Peltzlə evlənib. Bekhemin oğlu toy mərasimindən sonra sahildə avtomobili sürüb.



## Şəxsi ayaqqabı brendinin yeni kolleksiyasını təqdim etdi

ABŞ-lı müğənni Keti Perri şəxsi ayaqqabı brendinin yeni kolleksiyasını təqdim edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, səhnədəki əyləncəli geyimlərini də dizaynlarına əks etdirən müğənninin kolleksiyasında dəniz qabığı formalı dabanlı başmaqlar və dəniz ulduzu detallı sandallar diqqət çəkib. O, "2008-ci ildən göz önündəyəm. Üslubum dəyişir, amma yumoristik tərəfimi saxlamağa çalışıram" deyib.

*Ayşən Vəli*





## Didye Droqba prezident olmaq istəyir

**Fil Dişi Sahili millisinin sabiq futbolçusu Didye Droqba ölkənin futbol federasiyasının prezidenti vəzifəsinə namizədliyini irəli sürüb. Bu barədə "Africa News" məlumat yayıb.**

"Federasiyasının prezidenti vəzifəsinə namizədlərin qəbulu başa çatıb. Altı namizəd qeydə alınıb. Bunlar Yatte Ellele Jan-Batist, Arnaud Aka, Loran Kouaku, İdris Diallo, Sori Diabate və Didye Droqbadır", - deyə federasiyadan bildirilib. Qeyd edək ki, seçkilər aprelin 23-də keçiriləcək.



## Məşhur cütlük 3,5 milyon dollarlıq toy etdi

Britaniyalı fotoqraf Bruklin Bekhem və amerikalı aktrisa Nikola Peltsin toy mərasimindən ilk fotolar yayılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, italyan moda evi "Valentino"nun hazırladığı gəlinliyi ilə Nikola sadə gəlin olub. O, gəlinliyini fransız krujevadan hazırlanmış əlcəklər və platforma dabanlı "Versace" markalı ayaqqabısı ilə tamamlayıb. Digər tərəfdən, bəyin ailəsi Bruklinin gəlinin soyadını almasını birmənalı qarşılamayıb.

*Ayşən Vəli*

## Qazlı suları qazı çıxarılmış formada qəbul etmək daha yaxşıdır

**Qazlı sulardan həzm prosesini sürətləndirmək, xoşbəxtlik hormonunu artırmaq və orqanizmin enerji deposunu yüksəltmək üçün istifadə edilir. Mütəxəssislərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, həftə ərzində 4-5 butulkadan çox keyfiyyətsiz qazlı içmək insanlarda asılılığın yaranmasına səbəb olur. Həmin içkilərin tərkibində olan limon turşusu mədənin fəaliyyətinə mənfi təsir göstərməklə yanaşı, mədə xorası və digər xəstəliklərin yaranmasına gətirib çıxarır.**

Həkim-endokrinoloq Lamiyə Həbibbəyli deyib: "1 litrlik şirin içkilərdə 20-30 xörək qaşığı şəkər olur və bu qədər şəkər orqanizmdə piy toxumasına çevrilərək əsasən göbək ətrafına və bud-qalça nahiyəsinə yığışır. Nəticədə piylənmə əmələ gəlir, bu isə ürək və diabet xəstəliklərinin yaranmasına aparıb çıxarır".

Həkimlər həmin içkilərin əvəzinə orqanizmə xeyirli olan təbii süfrə suyunun qəbulunu məsləhət görürlər. Natriumla zəngin təbii süfrə suları təzyiqi aşağı olanlara müsbət təsir göstərir. Təzyiqi yuxarı olanlar isə ona limon əlavə edərək içə bilərlər. Həkim-endokrinoloqun dediyinə görə, həmin suların tərkibi kalium, maqnezium, natrium, kükürd, dəmir və başqa elementlərlə zəngindir: "Mədə turşuluğu az olanlarda onu artırmaq məqsədilə yeməkdən qabaq, mədə turşusu artıq olanlarda isə yeməkdən 40 dəqiqə-1 saat sonra qəbul etmək olar. Yaxşı olar ki, qazlı su içkiləri qazı çıxarılmış formada qəbul edilsin".

Araşdırmalar nəticəsində məlum olub ki, şüşə qablarda olan mineral sular tərkibini itirmir. Həmin şüşə qabların daha çox tünd rəngdə olması qazlı suyun tərkibini itirməsini minimuma endirir: "Plastmas qablarda olan sulardan uzaq olmaq lazımdır, çünki plastmas istehsalında tərkibinə müxtəlif zərərli maddələr vurulduqda onlar kiçik dozalarda da olsa, zərərli toksinlər orqanizmə daxil olur".

Hər gün istifadə olunan qazlı suyun xeyirli və zərərli tərəflərini öyrənəndən sonra mütəxəssislər həmin mineral suları yalnız yeməkdən sonra həzm prosesini yaxşılaşdırmaq üçün istifadəsini tövsiyə edirlər.






*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**